AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTITUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu



# SƏRİŞTƏ ƏSASLI QİYMƏTLƏNDİRMƏ MÜTƏXƏSSİSİ

## TƏLİM MATERİALLARI

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və əlavə təhsildə müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəllif:** Karen Adams

**Modul üzrə məsləhətçilər:** Aynur Kərimova, Emil Əsgərov

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**GİRİŞ** ..... **8**
**1. Modul 1: Qiymətləndirmənin əsas prinsiplərinin tətbiq edilməsi** ..... **9**
1.1. İcmal ..... 9
1.2. Bu modul üçün müəyyən edilən təlim nəticələri və qiymətləndirmə meyarları ..... 9
1.3. Modul 1: Təlim materialları ..... 10
1.3.1. Giriş ..... 10
1.3.2. Qiymətləndirmənin əsas prinsiplərinə giriş ..... 11
1.3.3. Qiymətləndirmə həyat dövrəsinə giriş ..... 14
1.3.4. Səriştə əsaslı təhsilin qiymətləndirilməsi ..... 19
1.4. Modul 1: Təhsilalanın fəaliyyətləri ..... 27
*TAPŞIRIQ 1: Biz kimik - və niyə buradayıq?* ..... 27
*TAPŞIRIQ 2: Qiymətləndirmə prosesiniz nədən ibarətdir?* ..... 28
*TAPŞIRIQ 3: Sizin qiymətləndirmə prosesinizin təhlili* ..... 29
*TAPŞIRIQ 4: Bəs biz bu prinsipləri səriştə əsasında qiymətləndirmədə necə ehtiva edirik?* ..... 30
TAPŞIRIQ 5: Kontekstinizin təhlili ..... 31
1.5. Modul 1: Qiymətləndirmə ..... 33
1.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi ..... 33
1.5.2. Modul 1: Qiymətləndirmə tapşırığı və şablonu ..... 36
**2. Modul 2. Qiymətləndirmə metod və vasitələrinin hazırlanması** ..... **38**
2.1. İcmal ..... 38
2.2. Modul 2. Müvafiq qiymətləndirmə metod və vasitələrinin hazırlanması ..... 38
2.3. Modul 2. Tədris materialları ..... 39
2.3.1. Giriş ..... 39
2.3.2. Səriştə qiymətləndirilməsinə prinsipləri tətbiq etmək ..... 42
2.3.3. Qiymətləndirmə alətinin hazırlanması ..... 47
2.4. Modul 2: Təhsilalanın fəaliyyətləri ..... 56
*Tapşırıq 1: Səriştənin qiymətləndirilməsi* ..... 56
*TAPŞIRIQ 2 : "Bilik" və "bacarığ"ın qiymətləndirilməsi* ..... 57

*TAPŞIRIQ 3: Təhlükənin qavranma səviyyəsini qiymətləndirən alətin qiymətləndirilməsi* 58
*TAPŞIRIQ 4: Tapşırıqla bağlı xüsusi məlumatlar* ... 59
*TAPŞIRIQ 5: Resurslarla bağlı tələblərin təyin edilməsi* ... 60
*TAPŞIRIQ 6: Qiymətləndirici nələri bilməlidir* ... 61
*TAPŞIRIQ 7: Tapşırığın təlim nəticələrtinə uyğunlaşdırılması* ... 62
*TAPŞIRIQ 8: Qiymətləndirmə tapşırığının nəzərdən keçirilməsi* ... 63
2.5. Modul 2: Qiymətləndirmə ... 64
2.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi ... 64
2.5.2. Qiymətləndirmə tapşırığı və şablonu ... 66
**3. Modul 3: Qiymətləndirmə prosesinin planlaşdırılması ... 68**
3.1. İcmal ... 68
3.2. Təlim nəticələri və Qiymətləndirmə meyarları ... 69
3.3. Modul 3: Tədris materialları ... 70
3.3.1. Giriş ... 70
3.3.2. Hazırlıq siyahısının hazırlanması ... 74
3.4. Modul 3: Təhsilalanın fəaliyyətləri ... 82
*TAPŞIRIQ 1: Hazırki yoxlamalar nələrdir?* ... 82
*TAPŞIRIQ 2: Hazırlıq və yoxlamalar: Namizədlər* ... 83
*TAPŞIRIQ 3: Hazırlıq və yoxlamalar: Heyət* ... 84
*TAPŞIRIQ 4: Hazırlıq və yoxlamalar: Məkan və resurslar* ... 85
*TAPŞIRIQ 5: Hazırlıq və yoxlamalar: Təhlükəsizlik* ... 86
*TAPŞIRIQ 6: Hazırlıqların və yoxlamaların yerində olmasını təmin etmək* ... 87
3.5. Modul 3: Qiymətləndirmə ... 88
3.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi ... 88
3.5.2. Qiymətləndirmə tapşırığı ... 91
**4. Modul 4: Qiymətləndirmənin aparılması və qiymətləndirmə qərarlarının verilməsi ... 92**
4.1. İcmal ... 92
4.2. Təlim nəticələri və qiymətləndirmə meyarları ... 93
4.3. Modul 4: Tədris materialları ... 95
4.3.1. Giriş ... 95
5.3.2. Qiymətləndirmədə ardıcıllığın təmin edilməsi ... 97

5.3.3. Qiymətləndirmə təcrübəsində keyfiyyət təminatı ........ 103
4.4. Modul 4: Təhsilalanların fəaliyyətləri ........ 108
*TAPŞIRIQ 1: "Qiymətləndirici" kimdir?* ........ 108
*TAPŞIRIQ 2: Kontekstinizdə standartlaşdırma* ........ 109
*TAPŞIRIQ 3: Kontekstinizdə təsdiqləmə* ........ 110
*TAPŞIRIQ 4: Qiymətləndirmədə ardıcıllığın təmin edilməsi* ........ 111
*TAPŞIRIQ 5: Qiymətləndiricilər üçün davranış kodeksi* ........ 112
*TAPŞIRIQ 6: Nə qədər hazırsınız?* ........ 113
4.5. Modul 4: Qiymətləndirmə ........ 114
4.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi ........ 114
4.5.2. Qiymətləndirmə tapşırığı ........ 117
Əlavə 1: Əsas terminlərin lüğəti ........ 118

# GİRİŞ

Bu sənəd **"Səriştə əsaslı qiymətləndirmə mütəxəssisi"** kvalifikasiyasını tədris edən təlimçilər üçün hazırlanmışdır. Sənədə daxil edilmiş modullar təhsilalanlara dəstək olmaq üçün lazımi materiallar, təlimatlar və fəaliyyətləri əhatə edir.

## a) Səriştə əsaslı qiymətləndirmə mütəxəssisi kvalifikasiyası kimlər üçündür?

Kvalifikasiya təhsil proqramlarını tədris edən təcrübəli müəllimlər üçün tərtib edilmişdir. Bu sənəd təhsilin keyfiyyətini və bacarıqların qiymətləndirməsinin etibarlılığını və həqiqiliyini təmin təmin etmək üçün nəzərdə tutulub və 8 sessiyada müəllimə qiymətləndirmə prosesində öz vəzifəsini anlamasına və həyata keçirməsinə kömək edir.

## b) Səriştə əsaslı qiymətləndirmə mütəxəssisi kvalifikasiyasına nələr daxildir?

Bu təlim materialı təcrübəli müəllimlərin peşəkar inkişafı üçün hazırlanmış tədris resursudur. Sənəd aşağıda verilən 4 modulu özündə birləşdirir:

Modul 1: Qiymətləndirmənin əsas prinsiplərinin tətbiq edilməsi;
Modul 2: Müvafiq qiymətləndirmə metod və vasitələrinin hazırlanması;
Modul 3: Qiymətləndirmə prosesinin planlaşdırılması;
Modul 4: Qiymətləndirmənin aparılması və qiymətləndirmə qərarlarının verilməsi.

Hər modul fərdi qiymətləndirilir. Kvalifikasiya formal təlimi iş əsaslı öyrənmə ilə birləşdirir və 720 tədris saatında tamamlanır. Müəyyən edilmiş tədris saatları aşağıda verilənlərin arasında bölünür:

- Formal (sinif əsaslı) təhsil;
- Özünü təhsil;
- Fərdin öz tədris kontekstinə aid praktik tapşırıqlar;
- Hər modul tərəfindən tələb olunan qiymətləndirmə tapşırıqları.

## c) Təlim materiallarından istifadə

Bu təlim materialı kvalifikasiyanı tədris edən təlimçi(lər) tərəfindən istifadə etmək üçün hazırlanmışdır. 4 modulun hər birinin tədris olunmasını istiqamətləndirmək üçün məlumatlar, materiallar və fəaliyyətlər təqdim edilir. Hər bir modul aşağıda verilənləri əhatə edir:

- Modulun məqsədi, təlim nəticələri və qiymətləndirmə meyarlarının icmalı;
- Şəkillər və modulun əsas məlumatlarını əhatə edən müşayiətedici təlimatlar;
- Fəaliyyətlərdən necə istifadə ediləcəyinə dair təlimatlarla birlikdə təhsilalan üçün fəaliyyətlər;
- Modulun necə qiymətləndirildiyi barədə məlumat.

# 1. Modul 1: Qiymətləndirmənin əsas prinsiplərinin tətbiq edilməsi

## 1.1. İcmal

Bu modul etibarlı və həqiqi qiymətləndirməni həyata keçirmək üçün əsas prinsip və proseslər haqqında məlumat verir. Təhsilalanlara prinsip və prosesləri anlamağa, onları tədris kontekstlərində tətbiq etməyə kömək etmək üçün hazırlanmışdır. Bu bölməyə modul 1-in tədris olunmasını dəstəkləyən materiallar, fəaliyyətlər və qiymətləndirmə təlimatı daxildir. Modulda verilən bütün qiymətləndirmə meyarları təlim nəticələrinə ünvanlanır. Bunlara daxildir:

- Təlimçinin istifadəsi üçün şəkillər və onlardan istifadə təlimatları;
- Təhsilalanlar üçün 5 fəaliyyət;
- Bu modulun qiymətləndirilməsi üçün tələb olunan qiymətləndirmə vasitəsi və qiymətləndirmə təlimatı.

## 1.2. Bu modul üçün müəyyən edilən təlim nəticələri və qiymətləndirmə meyarları

| | |
|---|---|
| **Modulun adı:** | Qiymətləndirmənin əsas prinsiplərinin tətbiq edilməsi |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra, qiymətləndirmənin və kvalifikasiyanın məzmununa dair əsas prinsipləri biləcək.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Qiymətləndirmənin əsas prinsiplərinin anladığını nümayiş etdirmək | a) Öyrənmənin effektiv qiymətləndirilməsinin əsas anlayış və prinsiplərini izah edir;<br>b) Effektiv qiymətləndirmənin mərhələlərini təsvir edir;<br>c) Effektiv qiymətləndirməyə cəlb olunanların rollarını şərh edir. |
| 2. Kvalifikasiyanın məzmununa dair əsas prinsipləri tətbiq etmək | a) Səriştə əsaslı öyrənmə prosesində təhsilalanın qiymətləndirilməsi ilə bağlı normativləri müəyyən edir;<br>b) Qiymətləndirmə prosesində öz rolu/vəzifə və məsuliyyətini müəyyənləşdirir. |

## 1.3. Modul 1: Təlim materialları

### 1.3.1. Giriş

Modulun bu hissəsinin məqsədi iştirakçıların aşağıdakı məlumatlarla təmin edilməsidir:

- Modulun məqsədi və tərkibi haqqında məlumat;
- Qruplarla işin təşkil olunması;
- Qiymətləndirmə təcrübələrini əks etdirməyə və qiymətləndirməyə başlamaq.

**Modulun mövzusu:** Səriştə əsaslı kvalifikasiyaların qiymətləndirmə prinsipləri.

- Keyfiyyətinə təminat verilən qiymətləndirmə dedikdə nə nəzərdə tutulur? Bu nə üçün vacib hesab olunur?
- Qiymətləndirmə prosesində sizin rolunuz nədən ibarətdir?
- Səriştə əsasında qiymətləndirmə dedikdə nə nəzərdə tutulur və əsas prinsiplər necə tətbiq olunur?
- Bütün iştirakçılar tələbə fəaliyyətini qiymətləndirən təcrübəli müəllimlər olmalıdır. Buna görə təlim iştirakçılara öz tədris kontekstində prinsiplərin necə tətbiq olunduğunu və ya tətbiq oluna biləcəyini düşünməyə kömək etməlidir.

**TAPŞIRIQ 1**

a) **Modul 1** istifadə edin: **Tapşırıq 1.** İş vərəqi paketin "Fəaliyyətlər" bölməsinə daxildir.

Modula başlamazdan əvvəl aşağıdakı suallar ətrafında fikirləşin:

- Qiymətləndirmədə sizin rolunuz nədən ibarətdir?
- Bu moduldan hansı məlumatları öyrənməyi gözləyirsiniz?

b) Bu fəaliyyəti qruplar şəklində də həyata keçirmək mümkündür:

- Müxtəlif məktəblərdən və təhsil müəssisələrindən olan iştirakçılara bir-biri ilə tanış olmağa və qiymətləndirmə təcrübələrini müzakirə etməkdə özlərini rahat hiss etməyə imkan yaratmaq;
- İştirakçılar tələbə fəaliyyətinin qiymətləndirilməsində öz təcrübələri üzərində düşünməyə təşviq edilməlidir. Xüsusilə, öz vəzifələri və hal-hazırda işlədikləri qurumun strukturuna nə dərəcədə uyğun olması barədə düşünməlidirlər.

c) Qruplardan rəy almaq: təcrübələrini müqayisə edərkən hər qrup daxilində 2 əsas oxşar və fərqi cəhətlər müəyyən etməlidir.

d) İştirakçılar sessiyanın sonunda həmin oxşar və fərqli cəhətləri qiymətləndirməlidirlər.

**Modulun məqsədi:**

- Səriştə əsaslı təlimin düzgün qiymətləndirilməsini təmin etmək üçün lazım olan əsas prinsipləri izah etmək;
- Qiymətləndirmə dövrəsinin əsas mərhələlərini təsvir etmək;
- Qiymətləndirmə dövrəsində müəllimin rolunu təyin etmək.

Modulun bu hissəsi modulun məqsədlərini möhkəmləndirmək və iştirakçıların biliklərindən necə istifadə etdiklərini göstərmələrinin gözlənildiyini vurğulamaq üçün istifadə edilməlidir.

### 1.3.2. Qiymətləndirmənin əsas prinsiplərinə giriş

Bu bölmə iştirakçıları (təlim) aşağıdakı təlim nəticələri və əlaqəli qiymətləndirmə meyarlarını həll etməyə hazırlayır.

- 1a, b və 2b.
- Keyfiyyətə təminat verən qiymətləndirmə nədir? Nə üçün əhəmiyyətlidir?
- Əsas şərtləri müəyyən etmək və iştirakçılara keyfiyyətə təminat verən qiymətləndirmənin niyə bu qədər əhəmiyyətli olduğu izah edilməlidir.
- Kvalifikasiya və qiymətləndirmə terminlərinin izahı:

  **Kvalifikasiya:** *şəxsin müvafiq standartlara uyğun olan təlim nəticələrinə yiyələnməsi haqqında səlahiyyətli qurum tərəfindən aparılan qiymətləndirmə və təsdiqetmə prosesinin rəsmi nəticəsidir.*

  **Qiymətləndirmə:** *təhsilalanların bilik, bacarıq, yanaşma və fikirlərinin konkret şərtlər çərçivəsində qiymətləndirilməsi prosedurudur (məsələn: təlim nəticələrinin qiymətləndirilməsi).*

- Kvalifikasiya: bu tərifin vacib tərəfi odur ki, qiymətləndirmə kvalifikasiyanın müəyyən edən xüsusiyyətidir - qiymətləndirmə olmadan kvalifikasiya yoxdur.
- Qiymətləndirmə haqqında yuxarıda göstərilən izah, əvvəlcədən müəyyən edilmiş meyarlara qarşı bilik və bacarıqların ölçülməsinin vacibliyini vurğulayır. Bu, kvalifikasiyalar üçün təlim nəticələri və qiymətləndirmə meyarları deməkdir.
- Bu, diaqram təlim nəticələri, qiymətləndirmə və təlim proqramları arasındakı əlaqəni nümayiş etdirir (Şəkil 1.1).




**Şəkil 1.1. Təlim nəticələri, qiymətləndirmə və təlim proqramları arasındakı əlaqə**

- Təlim nəticəsi dedikdə öyrənənlərin təlimin sonunda hansı bilik və bacarıqlara yiyələnməli olduğu nəzərdə tutulur.
- Qiymətləndirmə təlim nəticələrinə çatdıqlarını yoxlamaq üçün bir testdir.
- Tələbələr eyni nəticələrə bir çox fərqli istiqamətdən çata bilərlər. Uzun və qısa proqramları izləyə bilərlər; özləri və ya mütəşəkkil bir tədris proqramının bir hissəsi kimi öyrənə bilərlər. Lakin necə təhsil almalarından asılı olmayaraq, ən başlıcası öyrənmə nəticələrinə nail olub olmadığını bilməkdir. Bu o deməkdir ki, qiymətləndirmə mütəxəssisləri yalnız öyrətdiklərini qiymətləndirməlidir. Təlim nəticələri ilə əlaqədar olaraq təhsilalanların özləri edə biləcəklərini qiymətləndirməyə diqqət yetirməlidirlər.

Bu diaqram qiymətləndirmə nəticələrinin üç fərqli istifadəsini vurğulayır (Şəkil 1.2):

- Proqramın əvvəlində şagirdin nə bildiyini, nə edə biləcəyini və buna görə həqiqətən nə öyrənməli olduğunu diaqnoz etmək. Buna ilkin qiymətləndirmə və ya diaqnostik qiymətləndirmə də demək olar.
- Tədris proqramı müddətində təhsilalanın irəliləməsini, inkişaf etdirdiklərini və diqqətini yönəltməli olduğu yerləri müəyyənləşdirmək və ya formalaşdırmaq. Buna formativ qiymətləndirmə də demək olar.
- Kvalifikasiyanın verilməsi üçün təhsilalanın qazandığı müvəffəqiyyət haqqında proqramın sonunda ümumiləşdirilmiş qərar çıxarmaq. Buna summativ qiymətləndirmə də demək olar.




**Şəkil 1.2. Qiymətləndirmə nəticələrinin üç fərqli istifadəsi**

Hər üç məqsəd üçün eyni növ qiymətləndirmə vasitələrindən istifadə edilə bilər. Qiymətləndirmənin nəticəsinin hansı məqsəd üçün istifadə olunması onun növünü təyin edir. Yəni nəticələrdən diaqnostik və ya summativ məqsəd üçün istifadə oluna bilər.

➢ Qiymətləndirmənin 5 əsas prinsipi və onların tərifi şəkil 1.3 və şəkil 1.4-də təqdim edilmişdir.

**NƏ ÜÇÜN qiymətləndirmə bu qədər vacib əhəmiyyət kəsb edir?**

Kvalifikasiyalara **İNAM və ETİMAD** baxımından qiymətləndirmənin düzgün aparılması vacibdir.

Təhsilalanlar, işəgötürənlər və cəmiyyət inanmalıdır ki:

**HƏQİQİ**

- Kvalifikasiya sertifikatına malik şəxs kvalifikasiyanın təlim nəticələrinə həqiqətən də nail olmuşdur.

**ETİBARLI**

- Eyni kvalifikasiyaya malik bütün təhsilalanlar təhsil aldıqları məkanda, təhsilverənin və onları qiymətləndirən şəxsin kimliyindən asılı olmayaraq, eyni səviyyəyə gəlib çatmışlar.

**Şəkil 1.3. Qiymətləndirmənin 5 əsas prinsipi**

**NƏ ÜÇÜN qiymətləndirmə bu qədər vacib əhəmiyyət kəsb edir? (2)**

**ƏLÇATAN**

Təhsilalanlar əmin olmalıdırlar ki, hansı şərtlərə malik olmalarından asılı olmayaraq, onlar qiymətləndirmədə iştirak edə bilərlər.

**ŞƏFFAF VƏ ƏDALƏTLİ**

Təhsilalanlar və təhsilverənlər qiymətləndirmənin nədən ibarət olduğunu başa düşdüklərinə və qiymətləndirmənin ədalətli olacağına əmin olmalıdırlar.

**İCRASI MÜMKÜN OLAN**

Təhsil müəssisələri qiymətləndirmənin səmərəli və heç bir gözlənilməyən resurs tələb etmədən aparılacağına əmin olmalıdırlar.

**Şəkil 1.4. Qiymətləndirmənin 5 əsas prinsipi**

➢ Prinsiplər haqqında danışmazdan öncə vurğulamaq lazımdır:

- İşəgötürənlər və bütövlükdə cəmiyyət hər hansı bir peşə sahəsinə kvalifikasiyalı insanın həqiqətən də həmin sahə ilə əlaqəli işi görə biləcəyinə əmin olmalıdır.
- Kvalifikasiyaya etimad və inam yaratmaq üçün sağlam qiymətləndirmə vacibdir.
- Qiymətləndirmənin nəticələrinə etibar etmək qiymətləndirmənin müəyyən prinsiplərə uyğun olduğunu bilmək deməkdir.

**Prinsiplər**

Kvalifikasiyaya etibar etmək üçün əmin olmalıyıq ki, qiymətləndirmə:

1. Həqiqidir - təhsilalanın təlim nəticələrini əldə etməsini həqiqətən sınaqdan keçirir.
2. Etibarlıdır - təlim nəticələri, qiymətləndiricinin kim olduğu, təhsilalanın harada oxuduğu və qiymətləndirmənin nə vaxt baş tutmasından asılı olmayaraq eyni qaydada və eyni standartla ölçülmüşdür.
3. Əlçatandır - bu o deməkdir ki, kvalifikasiya götürən bütün şəxslər vəziyyətdən asılı olmayaraq qiymətləndirməni başa çatdıra bilməlidirlər. Məsələn, qiymətləndirmə mütəxəssisi avadanlıqların istifadəsini tələb edirsə, həmin avadanlıq qiymətləndirmə aparıldığı yerdə mövcud olmalıdır.
4. Şəffaf və ədalətlidir - iştirak edən hər kəs (təhsilalanlar və tədris edənlər) qiymətləndirmənin necə aparılacağını, ədalətli və qərəzsiz olacağına inanmalıdır.
5. İcrası mümkün olandır - qiymətləndirmə prosesi çətinlik olmadan aparılmalıdır. Əgər qiymətləndirmə çox mürəkkəbdirsə və ya həddən artıq çox resurs tələb edirsə (məsələn, insanlar, vaxt və materiallar), onda həyata keçirmək çox çətin ola bilər.

### 1.3.3. Qiymətləndirmə həyat dövrəsinə giriş

Bu bölmə iştirakçıları aşağıdakı qiymətləndirmə meyarlarını icra etməyə hazırlayır: 1b və c; 2b (Şəkil 1.5).




**Şəkil 1.5. Verilən qiymətləndirmə meyarlarının icrası**

- Əsas məqamlar:
- Qiymətləndirmə aparılmadan əvvəl yerinə yetirilməli tapşırıqlar var. Bunlar qiymətləndirmənin etibarlı və həqiqi nəticələr verəcəyindən əmin olmaq üçün hazırlıq tapşırıqlarıdır.
- Qiymətləndirmənin şəffaf, ədalətli və etibarlı olduğundan əmin olmaq üçün qiymətləndirmə zamanı etməli tapşırıqlar;
- Nəticələrin etibarlı və həqiqi olduğundan əmin olmaq üçün qiymətləndirmədən sonra etməli vəzifələr;
- Qiymətləndirmə prinsipləri qiymətləndirmənin bütün mərhələlərinin əsasını təşkil edir.

**TAPŞIRIQ 2**

➢ Verilmiş məlumatlar təhsilalanların öz işi baxımından yenidən nəzərdən keçirilməlidir. Onlar qiymətləndirməni necə aparırlar?

- Həyata keçirdikləri qiymətləndirmə haqqında düşünməlidirlər. Aşağıdakı mərhələlərdə hansı tapşırıqlara ehtiyac var?
    - Təhsilalanların qiymətləndirilməsindən əvvəl;
    - Təhsilalanların qiymətləndirilməsi zamanı;
    - Təhsilalanların qiymətləndirilməsindən sonra.

Hər bir mərhələdə tapşırıqları icra edən şəxslər müəyyənləşdirilməlidir.
Bu prosesdə onların öhdəlikləri nələrdən ibarətdir? Digər tapşırıqları kim yerinə yetirir? İcra etdikləri tapşırıqlara görə kimə hesabat verirlər? Qiymətləndirmə prosesindəki digər şəxslərlə onların əlaqəsi necədir?

- Qiymətləndirmədən əvvəl və sonra tələb olunan müxtəlif tapşırıqlar;
- Qiymətləndirmə tapşırıqlarının yerinə yetirilməsində iştirak edən insanlar və ya onların vəzifələri;

Bu tapşırıqlar üçün hesabatlılığın fərqli insanlara və ya onların kontekstində vəzifələrə necə ayrıldığı və ya necə olması.

- Qiymətləndirmə həyat dövrəsinə keçməzdən əvvəl bu tapşırığı yerinə yetirmək iştirakçılara həyat dövrlərindəki fərqli vəzifələr haqqında danışılarkən düşünə biləcəkləri praktik bir kontekst verir. Bu, həmçinin onlara vəziyyətlərini daha effektiv təhlil etməyə kömək edəcəkdir.
- Bu "Qiymətləndirmə Həyat Dövrəsi" tədrisin keyfiyyətlə qiymətləndiril-məsini inkişaf etdirmək və həyata keçirmək üçün lazım olan müxtəlif mərhələləri göstərən bir çərçivədir (Şəkil 1.6).




**Şəkil 1.6. Qiymətləndirmə Həyat Dövrəsi**

- Bu mərhələlər tədrisin qiymətləndirilməsinin keyfiyyət təminatında ən yaxşı beynəlxalq təcrübəni əks etdirir. Bu, qismən də olsa, test inkişafına meyil etmək işinə və geniş beynəlxalq kvalifikasiya qurumları tərəfindən ixtisasartırma işlərində, ümumiyyətlə, izlənilən praktik proseslərə cəlb edir.
- Bu şəkil (Şəkil 1.6) qiymətləndirmə müddətini təqdim edir, qiymətləndirmədə keyfiyyətin təmin edilməsi üçün lazım olan ayrı mərhələlərin bir-biri ilə necə əlaqəli olduğunu göstərir.

**Mərhələ 1: Tərtib etmək**

Bütün AzMKÇ kvalifikasiyalarının 2 hissəsi var: kvalifikasiya standartı və qiymətləndirmə standartı. Qiymətləndirmə standartı, kvalifikasiya qiymətləndirilməsinin ümumi dizaynını təqdim edir. Bu, bütün digər mərhələləri istiqamətləndirir. Ətraflı məlumat:

- Kvalifikasiya ***necə*** qiymətləndirilməlidir: bu istifadə ediləcək qiymətləndirmə vasitələrinin növlərini müəyyənləşdirir.
- Minimum standart ***nədir***: Minimum məqbul standart, tələbə kvalifikasiyasını əldə etmək üçün nəyi nümayiş etdirməli olduğunu müəyyənləşdirir.
- Qiymətləndirməni ***kim*** həyata keçirməlidir***:*** Bu qiymətləndirici olacaq insanları müəyyənləşdirir və onlara lazım olan bacarıq, təcrübə və təhsili müəyyənləşdirir.
- Qiymətləndirmə ***nə vaxt*** aparılmalıdır***:*** Qiymətləndirmə standartı qiymətləndirmə fəaliyyətlərinin tezliyini və vaxtını təyin edir.

**Mərhələ 2: Hazırlamaq**

Bu mərhələ tərtib planını işə salır. Bu, qiymətləndirmə vasitələri dizayn planındakı spesifikasiyalara əsaslanaraq ətraflı şəkildə işlənildikdə baş verir. Qiymətləndirmə alətinə, qiymətləndiriciyə təhsilalanın fəaliyyətini necə qiymətləndirmək barədə təlimat daxil olmalıdır. Modul 2-də inkişaf mərhələsi daha ətraflı verilib.

**Mərhələ 3: Qiymətləndirmək**

Bu mərhələ qiymətləndiricinin mərhələ 2-də hazırlanmış alətləri və təlimatlarından istifadə edərək şagirdin fəaliyyəti barədə mülahizələr etməsini əhatə edir. Bu qiymətləndirmənin etibarlılığı və həqiqiliyi üçün ən böyük riski təmin edən mərhələdir, çünki fərdi qiymətləndiricinin mülahizəsindən asılıdır.

- Yalnız bir qiymətləndirici varsa, qiymətləndirmə alətinin tələblərinə uyğun olaraq qərar verdiklərindən əmin olmalıyıq.
- Birdən çox qiymətləndirici varsa, hamısının tələblərə və eyni standarta uyğun qiymətləndirildiklərinə əmin olmalıyıq.

Nəticədə sertifikat verilmədən əvvəl qiymətləndiricilərin düzgün qərar verdiyindən əmin olmaq üçün bir sıra yoxlamaların daxil edilməsi vacibdir.

**Mərhələ 4: Təsdiq etmək**

Təsdiq etmə mərhələsi, qiymətləndiricilərin etibarlı və həqiqi qərar qəbul etmələrini təmin etmək üçün yoxlamalar aparıldıqda baş verir. **Bu, kvalifikasiyaların keyfiyyət təminatında vacib bir elementdir**. Qiymətləndirmə qərarlarının tələblərə uyğun və

ədalətli olmasını təmin etmək üçün bütün qiymətləndiricilər və qiymət sərhədləri arasında yoxlamaların aparılması daxildir. Böyük öyrənmə qrupları üçün bu yoxlama qiymətləndiricinin qərarlarından nümunə götürərək istifadə edilə bilər. Bu, hazırlıq keçmiş çox təcrübəli qiymətləndiricilər tərəfindən həyata keçirilən ekspert işidir. Təsdiqləmə prosesi və təsdiqləyicinin işi daha çox təsdiqləyici təlim proqramında araşdırılır.

**Mərhələ 5: Sertifikat vermək**

Sertifikatlaşdırma mərhələsi nəticələrin və sertifikatların müvəffəqiyyətli təhsilalanlara verildiyi mərhələdir. Nəticələrin və sertifikatların verilməsi prosesləri qaydalarla müəyyən edilir. Nəticələr və sertifikatlar verilməzdən əvvəl bu qaydaların yoxlanılması zamanı vaxtın nəzərə alınması vacibdir.

**Mərhələ 6: Nəzərdən keçirmək və qiymətləndirmək**

Bu mərhələ keyfiyyət təminatı prosesinin vacib hissəsidir. Hər bir mərhələnin müvəffəqiyyətini qiymətləndirmək və işlərin planlaşdırılmadığı sahələri müəyyənləşdirmək üçün qiymətləndirmə prosesini nəzərdən keçirmək vacibdir. Bu nəzərdən keçirmə və qiymətləndirmə mərhələsi qiymətləndirmə sistemində davamlı təkmilləşməni əhatə edir.

**Mərhələ 7: Yenidən baxmaq**

Mərhələ 6-da edilməli inkişafı müəyyənləşdiribsə, bu təkmilləşdirmələri sistemə daxil etmək üçün vaxt ayırmaq lazımdır. Bu mərhələ bütün prosesdə vacib olan etibarlı və həqiqi nəticələr əldə etməsini təmin etmək üçün 1-dən 5-ə qədər mərhələyə düzəlişlərin edilə biləcəyi bənddir.

- Şəkil 6-da göstərilən mərhələlərin hər biri üzrə müəllimlərin müəyyən rolu mövcuddur.
- Bir şəxs qiymətləndirmə dövrəsində bir sıra fərqli tapşırıqları yerinə yetirə bilər. Lakin hər mərhələdə məsuliyyətinin nə olduğunu tam şəkildə bilməli və bir mərhələdəki işlərdən, digər mərhələdəki işləri ayırmağı bacarmalıdır.

**Vəzifələr və məsuliyyətlər**

Şəkil 1.7 və Şəkil 1.8-də qiymətləndirmə dövrəsinin işlənməsi üçün tələb olunan vəzifələr haqqında daha ətraflı məlumat verir. Bunların vəzifə olduğunu və çox sayda fərqli insan olmadığını vurğulamaq lazımdır. Beləliklə, məsələn, kimsə hazırlayıcı ola bilər (qiymətləndirmə




**Şəkil 1.7. Rollar haqqında ətraflı məlumatlar**

alətlərini hazırlayan və qiymətləndirici). Lakin hər bir vəzifə üçün istifadə edəcəkləri bacarıqlar çox fərqli olacaq və ayrıldıqlarından əmin olmalıdırlar.

**Qiymətləndirmə sistemində kim hansı işi icra edir? (2)**

- **YOXLAMA İŞİNİ İCRA EDƏN MÜTƏXƏSSİSLƏR** bütün qiymətləndirmə müətəxəssislərinin apardığı işlərin strategiya və alətlərlə uyğunluq təşkil etməsini təmin edir və nəticələrin yoxlanması və təsdiqlənməsi fəaliyyətinə rəhbərlik edirlər.
- **QİYMƏTLƏNDİRMƏ ÜZRƏ KOORDİNATOR** təmin edir ki, prosesdə olan bütün inzibati addımlar vaxtında və qaydalara uyğun həyata keçirilsin, o, nəticə və sertifikatların uçotunu aparır və onları təqdim edir. Bu şəxs bütün prosesdə iştirak edir.
- **QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİNİN RƏHBƏRİ** qiymətləndirmə proseslərinin nəzərdən keçirilməsi, qiymətləndirilməsi və lazım olduqda düzəldilməsi də daxil olmaqla, qiymətləndirmə ilə bağlı bütün aspektlərə görə tam cavabdehlik daşıyır.
- Bütün bu şəxslər baxış və qiymətləndirmə mərhələlərində iştirak edirlər.

**Şəkil 1.8. Rollar haqqında ətraflı məlumatlar**

➢ Bu tapşırığın məqsədi, qiymətləndirmə dövrəsinin necə tətbiq olunduğu barədə məlumat verməkdir (Şəkil 1.9).

**TAPŞIRIQ 3**
**Sizin qiymətləndirmə prosesinizin təhlili**

1. Qiymətləndirmənin Həyat Dövrəsi diaqramında:
   a) Sizin rolunuza uyğun olan mərhələləri göstərin;
   b) Diaqramınızda olan digər mərhələlərlə bağlı qeydlər yazın, bu mərhələlərə görə cavabdeh olan digər insanları/ rolları göstərin.
2. Sizin qiymətləndirmə prosesi hansı hissədə daha güclüdür?
3. Hər hansı boşluq varmı?
4. Bu təhlildən hansı nəticələrə gəlmək olar?

**Şəkil 1.9. Qiymətləndirmə müddətinin tətbiq olunması**

➢ Tapşırıq 3 iş vərəqindən istifadə edin və aşağıdakı tapşırıqları yerinə yetirin:

- Rol və tapşırıqların qiymətləndirmə həyat dövəsi ilə necə əlaqəli olduğunu müəyyənləşdirin;

- Kimlər qiymətləndirmənin həyata keçirilməsində məsuliyyət daşıyır və onların rolu/ vəzifələri nədir;
- Qiymətləndirmə həyat dövrəsindəki boşluqlar harada ola bilər.

➢ Eyni müəssisədəki insanlardan birlikdə işləmələrini və qiymətləndirmə həyat dövrəsinin necə tətbiq olunduğunu nümayiş etdirən siyahı hazırlamalı.

➢ Qruplardan qiymətləndirmə dövriyyəsinin ən güclü hissəsini və hər hansı bir boşluğunu tapmağı istəyin.

### 1.3.4. Səriştə əsaslı təhsilin qiymətləndirilməsi

Bu bölmə iştirakçılara bu günə qədər öyrəndiklərini, bacarıqların qiymətləndirilməsinə tətbiq etməyə kömək üçün hazırlanmışdır.

➢ **Səriştə əsaslı qiymətləndirmə nə deməkdir?**

➢ Bəzi kvalifikasiyaların daha çox biliyin inkişafına (bəlkə də bəzi bacarıqların inkişafı ilə), digərlərinin isə bacarıqların inkişafına yönəldilməsini vurğulamaq vacibdir (Şəkil 1.10).




**Şəkil 1.10. Səriştəyə əsaslı öyrənmənin müəyyənləşdirilməsi**

➢ İki fərqli bilik növünü fərqləndirmək lazımdır:

- ***haqqında bilmək:*** mövzunun nəzəri tərəflərini bilmək deməkdir (məsələn, avtomobil mühərrikinin necə işlədiyini bilmək);
- ***necə edəcəyini bilmək:*** tapşırığı başa çatdırmaq üçün lazım olan addımları bilmək deməkdir (məsələn, necə sürməli olduğunu bilmək); Bu, həm də bilik və bacarığı fərqləndirməkdir.
- ***bacara bilmək:*** tapşırığı lazımi standarta uyğunlaşdırmaq bacarığına sahib olmaq deməkdir (məs: idarə edə bilmək)

➢ Səriştə dedikdə bəzən nəyi *necə edəcəyi və haqqında bilmək* nəzərdə tutulur. Lakin,

əksəriyyət hallarda buraya *bacara bilmək* daxildir (Şəkil 1.11);




**Şəkil 1.11. Səriştənin izahı**

- ➢ Kvalifikasiyanı necə qiymətləndirməyi planlaşdırarkən, onun məqsədini bilməliyik: Yuxarıda göstərilən hansı növ biliyi və ya səriştəni qiymətləndirməliyik?
- ➢ Təhsilalanların işi edə bilməsi üçün lazım olan bacarıqlara sahib olmalarından maraqlanırıq. Buna görə bacarıqların etibarlı və həqiqi bir sınağı olaraq qiymətləndirməni necə həyata keçirə biləcəyimizi düşünməliyik.
- ➢ Bu o deməkdir ki, təhsilalanın bacarıqlarını qiymətləndirmək üçün ən uyğun vasitələr seçməliyik.
- ➢ Müxtəlif növ qiymətləndirmə vasitələri mövcuddur (Şəkil 1.12).




**Şəkil 1.12. Müxtəlif qiymətləndirmə vasitələri**

Təhsilalanları qiymətləndirin:

- Hər bir qiymətləndirmə vasitəsinin nə olduğunun anladıqlarını;
- Onlardan eyni rəngli vasitələrin ortaq xüsusiyyətlərini müəyyənləşdirməyi.

**Təlimat:**

**a) Sarı qrup**: Bunlar obyektiv testlər - müəyyənləşdirilmiş cavabı olan suallardır. Bu növ suallar *haqqında bilmək* (məsələn, əşyaların adını çəkə bilmək) və *necə edəcəyini bilməyi* (məsələn, prosesi düzgün qaydada qoymaq) test etmək üçün yaxşıdır.

**b) Bənövşəyi qrup:** Bunlar təhsilalanların biliklərini nümayiş etdirmələrini xahiş edən (haqqında bilmək və necə edəcəyini bilmək) diskursiv suallardır.

**c) Yaşıl qrup:** Bunlar bacarıqların qiymətləndirilməsinin *birbaşa* yollarıdır. Qiymətləndirici tapşırığın məhsulunu və ya nəticəsini qiymətləndirə bilər (məsələn, təcrübəçi aşpazın hazırladığı yeməyi dadmaq, real, simulyasiya edilmiş mühitdə hazırlamağını izləmək).

**d) Firuzəyi qrup:** Bunlar bacarıqların qiymətləndirilməsinin *dolayı* yollarıdır. Bu tip tapşırıqlarda qiymətləndirici təhsilalan tərəfindən verilən bacarıq dəlillərinə baxır. Bu iş yerində menecerin müşahidələri (yəni şahid ifadələri) və ya təhsilalanın nə etdiyini və necə etdiyini göstərən tapşırıqlar və ya layihələr vasitəsilə ola bilər. Portfel - etdiklərini göstərmək üçün müxtəlif dəlil növlərini (foto və ya video dəlillər da daxil olmaqla) bir yerə toplamağa imkan yaradır.

➢ Qiymətləndirmə vasitələrini hazırlayarkən yadda saxlanması lazım olan ən vacib şey qiymətləndirilən bölgə üçün ən uyğun vasitənin seçilməsini təmin etməkdir.

➢ Bu vacib məqamlar şəkil 1.13-də göstərilmişdir.




**Şəkil 1.13. Qiymətləndirmədə vacib məqamlar**

- Təhsilalanın mövzunu başa düşdüyünü qiymətləndirmək istəyirsinizsə, sadəcə yaddaşı yoxlayan suallardan istifadə etmək məqsədəuyğun deyil. Çünki bu suallarla sadəcə təhsilalanların yaddaşını yoxlaya biləcəksiniz.
- Qiymətləndirməsi lazım olan bilik növü nəzərə alınmalıdır - haqqında bilmək və ya necə edəcəyini bilmək?
- Bacarıq (yəni edə bilmək) və ya bilik qiymətləndirilən zaman nəzərə alınmalıdır.
- Hər zaman qiymətləndirmədə *hədəf* subyektivliliyi minimuma endirməkdir. Lakin obyektiv qiymətləndirmə (tək bir düzgün seçim və ya işin görülməsi yolu olduqda), bacarıqları qiymətləndirərkən doğru seçim deyildir. Buna görə də, təhsilalanların bacarıqlarını qiymətləndirən hər kəsin etibarlı və həqiqi nəticələrə gəldiyinə əmin olmaq nəzərə alınmalıdır.

➢ Ən vacib **2 məqam:**
Qiymətləndirmə vasitələri:

- Etibarlı və təlim nəticələrinə-qiymətləndirmə meyarlarına qarşı həqiqi müvəffəqiyyət testlərini təmin edən olmalıdır.

➢ Təhsilalanın təlim nəticələrini qiymətləndirmə meyarlarına qarşı necə nümayiş etdirdiyini dəqiq əks etdirən etibarlı testlər olmalıdır.

➢ Yuxarıda da göstərdiyimiz kimi, qiymətləndirmənin 5 əsas prinsipini əks etdirməlidir (Şəkil 1.14).




**Şəkil 1.14. Qiymətləndirmənin 5 əsas prinsipi**

**TAPŞIRIQ 4**

➢ Bu tapşırıq iştirakçıların öyrəndiklərini tətbiq etmək üçün hazırlanmışdır (Şəkil 1.15).

➢ Tapşırıq 4 iş vərəqindən istifadə edərək, sualları nəzərdən keçirmək üçün iştirakçılar kiçik qruplarda işləməlidir.

➢ **Şəkil 1.15-də göstərilmiş Sual 1:** İştirakçılara ilk sual verilməli və daha sonra rəy

toplanmalıdır.

**TAPŞIRIQ 4**
**Bəs biz bu prinsipləri səriştə əsasında qiymətləndirmədə necə ehtiva edirik?**

PTT proqramı üzrə Azərbaycanda təhsil alan bütün tələbələr ilk tibbi yardım təlimini keçmələri barədə şəhadətnamə almalıdırlar. Buradakı bacarıqlar süni nəfəs vermək, boğulma halında tədbir görmək və öz müəssisələri daxilində kömək çağırmaq kimi bacarıqları əhatə edir.

1. **Nailiyyətlər təlim nəticələri ilə müqayisədə sınaqdan keçirmək üçün hansı qiymətləndirmə metodlarından istifadə etmək olar?**

2. **Əsas prinsipləri rəhbər tutan qiymətləndirmə fəaliyyətinə nail olmaq üçün qarşınızda hansı maneələr durur?**

   Həqiqi - Etibarlı - Şəffaf və Ədalətli - Əlçatan və icrası mümkün olan

**Şəkil 1.15. İştirakçıların öyrəndiklərini vahid praktik nümunəyə tətbiqi**

- Unutmayın ki, tək qəti cavab yoxdur. Lakin təklif etdikləri qiymətləndirmə vasitələri bütün təlim nəticələrini həll etməlidir.
- Bəzi mümkün cavablar:
  - **Süni nəfəs:** insanda və ya manekendə simulyasiyanın müşahidəsi,
  - **Boğulma:** insanda və ya manekendə simulyasiyanın müşahidəsi,
  - **Yardımın çağırılması:** obyektiv test (məsələn, bu fəaliyyətləri düzgün qaydada qurun; zərurət yarandıqda yardım almaq üçün nə etməli olduğunuzu söyləyin) - yazılı və ya şifahi.
- **Şəkil 1.15-də göstərilmiş Sual 2:** Bu sual iştirakçılardan qiymətləndirmənin əsas prinsiplərinin tətbiqi ilə bağlı məsələləri vəziyyətə uyğun ətraflı nəzərdən keçirmələrini istəyir.
- **Bəzi mümkün cavablar:**
  - **Həqiqi:** dirilmə və boğulma ilə əlaqədar aparılan testlər həqiqətən müşahidə tələb edir. Çox sayda tələbə olduqda bu çətin ola bilər. Digər seçim isə sonrakı qiymətləndirmə üçün simulyasiyanı videoya çəkmək ola bilər.
  - **Etibarlı:** bütün tələbələr bu kvalifikasiyaya ehtiyac duyarsa, çox sayda qiymətləndiriciyə ehtiyac olacaqdır. Hamısının eyni standartda qiymətləndiriləcəyini necə bilirik? Az sayda qiymətləndiricinin təyin edilməsi və onları birlikdə hazırlamaq və ya qiymətləndirmə üçün video qiymətləndirmə simulyasiyalarını mərkəzi qiymətləndirmə qrupuna təqdim etmək daha etibarlı ola bilər.
  - **Şəffaf və ədalətli:** bütün təhsilalanların necə qiymətləndiriləcəyini və

kvalifikasiyadan keçmək üçün nəyin lazım olduğunu tam şəkildə başa düşmələrini təmin etmək lazımdır. Digər seçim isə ola bilər ki, kvalifikasiya götürən bütün tələbələrə eyni məlumat vərəqəsi verilsin.

- **Əlçatan:** bütün müəssisələrin lazımi avadanlıqları varmı? Hamısı uyğun standartdadır? Əlavə yardıma ehtiyacı olan tələbələr (məsələn, məhdud hərəkətliliyi ola bilər) üçün müvafiq hazırlıqlar həyata keçirilmişdirmi? Qiymətləndirməni necə tamamlaya bilərlər? Tələb olunan avadanlığın dəqiq spesifikasiyası və əlavə ehtiyacları necə idarə olunmalıdır?
- **İcrası mümkün olan:** bir müəssisədə bu kvalifikasiyaya yiyələnən çox sayda tələbə ola bilər - nə qədər avadanlıq lazımdır? Tələbələrin avadanlıqla nisbətini təyin etməyiniz lazım ola bilər. Tələbə sayı çox olduğu halda qiymətləndirmə necə idarə olunmalıdır (yuxarıdakı etibarlılığa baxın)?

➢ Müzakirədə başqa fikirlər yarana bilər. Unutmayın bu suala düzgün bir cavab yoxdur. İştirakçılara prinsiplərin qaldırdığı mövzularda düşünməyə kömək etmək üçün hazırlanmışdır.

➢ Şəkil 1.16 əsas məqamları yenidən yada salır. Tapşırıq 4-də gəlinmiş nəticələr digər tapşırıqlarda da tətbiq edilə bilər.




**Şəkil 1.16. Əsas məqamların yekunlaşdırılması**

**TAPŞIRIQ 5**

➢ Bu sessiyanın son tapşırığıdır. İştirakçıları modul 1-in qiymətləndirməsini başa çatdırmağa hazırlamaq üçün tərtib edilmişdir.

➢ Mümkün olduqda iştirakçılar tapşırıq 5-in (Şəkil 1.17) iş vərəqindən istifadə edərək öz vəziyyətlərini təhlil və müzakirə etmək üçün birlikdə işləməlidirlər.

➢ Burada etdikləri işin qiymətləndirilməsi üçün modul 1 tapşırığının əsasını təşkil edəcəyi

vurğulanmalıdır.

## TAPŞIRIQ 5
## Kontekstinizin təhlili

Kontekstinizi əks etdirin. Qiymətləndirilməsindən məsuliyyət daşıdığınız kvalifikasiyanı (və ya modul) seçin.

**Bu suallara cavab olaraq qeydlər edin**

1. Modulun və ya kvalifikasiyanın məqsədi hansılardır? Bir cümlə ilə, tələbəni nə etməyə hazırladığını təsvir edin.
2. Qiymətləndirmə həyat dövriyyəsi kontekstinizdə necə əks olunur? Aşağıda verilənləri müəyyən edin:
   - Bu kontekstdə hansı mərhələləri/ rolları aydın görmək olar?
   - Hansı mərhələlərə/ rollara cavabdehsiniz və digər rollarda kim məsuliyyət daşıyır?
   - Mümkünsə, qiymətləndirmə həyat dövriyyəsi diaqramını çəkin.
3. Qiymətləndirmə prinsipləri kontekstinizdə nə dərəcədə əks olunur? Qiymətləndirmənin aşağıda verilənlər kimi olmasını təmin etmək üçün görülən işləri müəyyənləşdirin:

**həqiqi– etibarlı– şəffaf– əlçatan- qarşılana bilən**

**Şəkil 1.17. Kontekstin təhlil edilməsi**

➢ İştirakçılara özünü qiymətləndirmədə kömək etmək üçün modulun məqsədini xatırlatmağa ehtiyac ola bilər.

**Məqsəd**:

Bu modulu tamamladıqdan sonra sizin əldə edəcəyiniz biliklər bunlar olacaqdır:

- Səriştə əsaslı təlimin düzgün qiymətləndirilməsini təmin etmək üçün lazım olan əsas prinsipləri izah etmək;
- Qiymətləndirmə dövrəsinin əsas mərhələlərini təsvir etmək;
- Qiymətləndirmə dövrəsində rolunuzu təyin etmək;
- Öyrəndiklərinizi tətbiq etmək üçün fəaliyyət planı hazırlamaq.

İştirakçılar bu təlim nəticələri ilə nə dərəcədə tanış olduqlarını və hansı əlavə məlumat və ya köməyə ehtiyac duyduqlarını bildirməlidirlər.

## QİYMƏTLƏNDİRMƏ

- Modulun qiymətləndirilməsi üçün tapşırığın təfərrüatları aşağıda təqdim edilmişdir.

  **Qiymətləndirməyə hazırlıq**

  Modul 1: Təqdim etməlisiniz...

  - Yazılı tapşırıq (maksimum 750 söz);
  - 5-ci tapşırıqdakı qeydlərinizə əsasən.
  - Tapşırıq şablonuna uyğun olaraq.
  - Tapşırığın təhvil verilmə tarixi.
- Qiymətləndirmə tapşırığı üçün verilmiş şablonu təmin etdiyinizdən əmin olun.
- Tapşırıq üçün təqdimat tarixini təyin etdiyinizə əmin olmalısınız.
- Tapşırıq 5 üçün etdikləri işin bu tapşırığın əsasını təşkil etdiyi bir daha vurğulanmalıdır. Buna görə çox böyük bir əlavə iş tələb etməməlidir. Lakin hər bir şəxsin qiymətləndirmə tapşırığını fərdi şəkildə təqdim etməsi vacibdir.

## 1.4. Modul 1: Təhsilalanın fəaliyyətləri

### *TAPŞIRIQ 1: Biz kimik - və niyə buradayıq?*

1. Ətrafınızda olan şəxsləri tanımırsınızsa, zəhmət olmasa özünüzü təqdim edin.

2. Ayrı-ayrılıqda - 3 dəqiqə:

   a) Qiymətləndirmədə sizin rolunuz nədən ibarətdir?

   b) Bu gün burada iştirak etmək səbəbiniz nədir?

   c) Sizcə, bugünkü tədbir sizə nə verəcək?

3. Ətrafınızda olan iştirakçılarla müqayisə aparın: Fikirləriniz nə qədər bir-birinə yaxındır və ya fərqlidir?

***TAPŞIRIQ 2: Qiymətləndirmə prosesiniz nədən ibarətdir?***

Kiçik qruplar/cütlər şəklində işləməklə

1. Həyata keçirdiyiniz summativ qiymətləndirmə barədə düşünün. Hansı tapşırıqlar lazımdır:

   a) Təhsilalanların qiymətləndirilməsindən əvvəl

   b) Təhsilalanların qiymətləndirildiyi zaman

   c) Təhsilalanların qiymətləndirilməsindən sonra

2. Hər bir mərhələdə tapşırıqları icra edən şəxsləri müəyyənləşdirin

3. Sizin öhdəliyiniz nədir və digər tapşırıqları kim icra edir?

4. İcra etdiyiniz tapşırıqlara görə siz kimə hesabat verirsiniz? Sistemdə olan digər şəxslərlə sizin bağlantınız necədir?

***TAPŞIRIQ 3: Sizin qiymətləndirmə prosesinizin təhlili***

1. Qiymətləndirmənin Həyat Dövrəsi diaqramında:

   a) Sizin rolunuza uyğun olan mərhələləri göstərin

   b) Diaqramınızda olan digər mərhələlərlə bağlı qeydlər yazın, bu mərhələlərə görə cavabdeh olan digər insanları/vəzifələrini göstərin.

2. Sizin qiymətləndirmə prosesiniz hansı hissədə daha güclüdür?

3. Hər hansı boşluq varmı?

4. Bu təhlildən hansı nəticəyə gəlmək olar?

***TAPŞIRIQ 4: Bəs biz bu prinsipləri səriştə əsasında qiymətləndirmədə necə ehtiva edirik?***

**Ssenari:**

Proqram üzrə Azərbaycanda təhsil alan bütün tələbələr ilk tibbi yardım təlimini keçmələri barədə şəhadətnamə almalıdırlar. Buradakı bacarıqlar aşağıdakıları əhatə edir:

- Süni nəfəs vermək;
- Boğulma halında tədbir görmək;
- Olduğu ünvana kömək çağırmaq.

Kiçik qruplar/cütlər şəklində işləmək:

1. Nailiyyətləri təlim nəticələri ilə müqayisədə sınaqdan keçirmək üçün hansı qiymətləndirmə metodlarından istifadə etmək olar?

2. Əsas prinsipləri rəhbər tutan qiymətləndirmə fəaliyyətinə nail olmaq üçün qarşınızda hansı maneələr durur?

a) Həqiqi

b) Etibarlı

c) Şəffaf və etibarlı

d) Əlçatan

e) İcrası mümkün olan

## TAPŞIRIQ 5: Kontekstinizin təhlili

Qiymətləndirməni istifadə etdiyiniz kontekst haqqında fikirləşin. Qiymətləndirmə üçün məsuliyyət daşıdığınız kvalifikasiyanı (və ya modul) seçin.

Bu suallara cavab olaraq qeydlər edin.

| |
|---|
| **a) Modulun və ya kvalifikasiyanın məqsədi nədir ? Bir cümlə ilə, tələbəni nə etməyə hazırladığını təsvir edin.** |
| |
| **b) Qiymətləndirmə həyat dövrəsi kontekstinizdə necə əks olunur? Aşağıda verilənləri müəyyən edin:**<br>• **Bu kontekstdə hansı mərhələləri-rolları aydın görmək olar;**<br>• **Hansı mərhələlərə-rollara cavabdehsiniz və digər rollarda kim məsuliyyət daşıyır?** |
| |
| **c) Mümkünsə, aşağıdakı qutuda “qiymətləndirmə həyat dövrəsi” diaqramını çəkin. Diaqram harada olduğunuzu və həyat dövrəsində digərləri ilə necə münasibət qurduğunuzu göstərməlidir.** |
| |

| | |
|---|---|
| d) **Qiymətləndirmə prinsipləri kontekstinizdə nə dərəcədə əks olunur? Qiymətləndirmənin aşağıda verilənlər olmasını təmin etmək üçün görülən hər hansı bir fəaliyyətə dair praktik nümunələr verə bilərsinizmi?** | |
| **a) Həqiqi** | |
| **b) Etibarlı** | |
| **c) Şəffaf və ədalətli** | |
| **d) Əlçatan** | |
| **e) Qarşılana bilən** | |

## 1.5. Modul 1: Qiymətləndirmə

### 1.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi

| **Modulun adı** | **Modul 1: Qiymətləndirmənin əsas prinsipləri** |
|---|---|
| **Modulun məzmunu**<br>*Bu modulun təlim nəticələri nələrdir?* | |
| Bu modul 2 təlim nəticəsini özündə cəmləşdirir. Namizəd:<br>1. Qiymətləndirmənin əsas prinsiplərini anladığını nümayiş etdirməlidir;<br>2. Kvalifikasiya kontekstinə aid əsas prinsipləri tətbiq etməlidir. | |
| **Qiymətləndirməyə yanaşma**<br>*Təlim nəticələri necə qiymətləndiriləcək?*<br>*Qiymətləndirmə vasitəsi və ya vasitələrinin hansı növü istifadə ediləcək?* | |
| Bu moduldakı təlim nəticələri qısa yazılı tapşırıqdan istifadə edilərək qiymətləndiriləcəkdir.<br><br>Tapşırıq namizəddən öz kontekstini və keyfiyyət baxımından qiymətləndirmə prinsiplərinin bu kontekstdə necə tətbiq olunmasının təsvirini tələb edir.<br><br>Bu modul 2-ci modul ilə eyni vaxtda qiymətləndirilə bilər. | |
| **Qiymətləndirmə vasitələri**<br>*Hər qiymətləndirmə vasitəsindən istifadə ediləcək:*<br>• *Alət özündə hansı növ tapşırıq və ya tapşırıqları ehtiva edir?*<br>• *Hansı qiymətləndirmə meyarlarına tətbiq edilir?*<br>• *Tapşırıqları başa çatdırmaq üçün namizəd nə etməlidir?* | |
| 1. Namizədlərdən aşağıda verilənlərin daxil olduğu yazılı tapşırıq hazırlamaları tələb olunur:<br>a) Qiymətləndirmə apardıqları konteksti və qiymətləndirmə üçün öz rollarını və məsuliyyətlərini təsvir edir;<br>b) Qiymətləndirmə kontekstində tətbiq olunan qanunvericilik və ya qaydaları müəyyən edir;<br>c) Qiymətləndirmə dövrünün onların kontekstində nə dərəcədə əks olunduğunu müəyyənləşdirir və təsvir edir;<br>d) Qiymətləndirmə prinsiplərinin onların kontekstində nə dərəcədə əks olunduğunu müəyyənləşdirir və təsvir edir.<br>2. Tapşırıq **750 sözdən** çox olmamalıdır. | |

3. Tapşırıq bu modulda təlim nəticələrinə daxil edilmiş bütün qiymətləndirmə meyarlarına cavab verməlidir:

**TN 1: Qiymətləndirmənin əsas prinsiplərinin anladığını nümayiş etdirmək**

*Uğurlu namizəd:*

a) Öyrənmənin effektiv qiymətləndirilməsinin əsas anlayış və prinsiplərini izah edir;
b) Effektiv qiymətləndirmənin mərhələlərini təsvir edir;
c) Effektiv qiymətləndirməyə cəlb olunanların rollarını şərh edir (qiymətləndirmənin həyat dövrəsi).

**TN2: Kvalifikasiyanın məzmununa dair əsas prinsipləri tətbiq etmək**

*Uğurlu namizəd:*

a) Səriştə əsaslı təhsil proqramı təhsilalanların qiymətləndirməsinə uyğun qanunvericiliyi müəyyən edə bilər;
b) Qiymətləndirmə prosesində öz rolu və məsuliyyətlərini müəyyən edə bilər.

**Keçid dərəcəsinə nail olmaq üçün minimum tələblər**

Aşağıdakı cədvəldə bu qiymətləndirmə üçün məzmun tələbləri və bu qiymətləndirməni keçmək üçün minimum tələblər təsvir edilmişdir.

| **Məzmun tələbləri** | **Keçid dərəcəsinə cavab vermək üçün minimum tələblər** |
|---|---|
| Namizəd yazılı tapşırıq təqdim etməlidir, hansı ki: | Keçid dərəcəsində, tapşırığa ən azı aşağıdakılar daxil olmalıdır: |
| 1. Qiymətləndirdikləri konteksti və qiymətləndirmə üçün onların rollarını ə məsul y ətlərini açıq şəkildə təsvir edir (1a) | • Kontekstdə qiymətləndirmə üçün onların rolu və məsuliyyətlərinin aydın təsviri; |
| 2. Qiymətləndirmə kontekstində tətbiq olunan qanunvericilik və ya qaydaları və bunların onların rol və vəzifələrinə necə tətbiq olunduğ nu müəyyənləşdirir (2a və b) | • Rollara tətbiq olunan qanunvericilik və ya tənzimləmə tələblərinin müəyyən edilməsi; |
| 3. Qiymətləndirmə həyat dövrəsi onların kontekstində nə dərəcədə əks olunduğunu müəyyənləşdirir və təsvir edir (1a və b; 2b) | • Kontekstində qiymətləndirmə rollarının müəyyənləşdirilməsi və bunların qiymətləndirmə həyat dövriyyəsi ilə necə əlaqəli olması; |

| | |
|---|---|
| 4. Qiymətləndirmə prinsiplərinin onların kontekstində nə dərəcədə əks olunduğunu müəyyənləşdirir və təsvir edir (1a və c; 2b) | • Hansı prinsiplərin kontekstdə əks olunduğunu müəyyənləşdirmək, hər biri ən azı bir praktik nümunə ilə dəstəklənir.<br>*Namizədlər kontekstlərində keyfiyyətin qiymətləndirilməsində iştirak edən addımları təsvir etmək üçün diaqram əlavə edə bilərlər. İstifadə edildiyi təqdirdə diaq a  əlavəyə daxil edilməlidir. Diaqram 200 sözdən (cəmi) çox olmamalıdır.* |

### 1.5.2. Modul 1: Qiymətləndirmə tapşırığı və şablonu

**Modul 1: Qiymətləndirmənin əsas prinsipləri**

**Qiymətləndirmə tapşırığı: Qiymətləndirmə kontekstinizi təsvir etmək**

Qiymətləndirmə kontekstinizi başqa bölgədəki bir həmkarınıza izah etməyiniz xahiş edilmişdir. Aşağıdakı şablondan istifadə edərək, şagirdlərin kontekstinizdə necə qiymətləndirildiyini və bu qiymətləndirmədə rolunuzu təsvir edin:

- **İcazə verilən maksimum söz: 750 (şablon və əlavədən başqa).**
- **Tapşırığınızın sonuna söz sayını daxil etməlisiniz.**

| |
|---|
| **a) Qiymətləndirmə kontekstinizi qısaca təsvir edin**.<br>Tədris etdiyiniz müəssisənin növü, nə tədris etdiyiniz və tələbələrinizin kim olduğu barədə qısa məlumat verməlisiniz. Tələbələrin qiymətləndirilməsində rolunuzun və məsuliyyətlərinizin nə olduğunu izah etməlisiniz və tələbələri necə qiymətləndirdiyinizi tənzimləyən hər hansı bir qanunvericiliyi və ya qaydaları təyin etməlisiniz. |
| |
| **b) Qiymətləndirmə həyat dövrəsinin kontekstinizdə nə dərəcədə əks olunduğunu müəyyənləşdirin və təsvir edin.**<br>Kontekstinizdə qiymətləndirmə həyat dövrəsinin hansı mərhələlərinin mövcud olduğunu və fərqli rolları kimin həyata keçirdiyini müəyyənləşdirməlisiniz. İstəyirsinizsə, qiymətləndirmə həyat dövrəsi ilə necə əlaqəli olduğunu, **qiymətləndirmə kontekstinizin necə aparıldığını göstərən diaqram** əlavə edə bilərsiniz. |
| |

| **c) Qiymətləndirmə prinsiplərinin kontekstinizdə nə dərəcədə əks olunduğunu müəyyənləşdirin və təsvir edin.**<br>Qiymətləndirmənin həqiqiliyi, etibarlılığı, şəffaflığı ədalətliliyi, əlçatanlığı və qarşılana bilinəcəyini təmin etmək üçün etdiyiniz hər hansı bir fəaliyyətin praktik nümunələrini müəyyənləşdirməli və təsvir etməlisiniz. Prinsiplərdən hər hansı birinin kontekstinizdə əks olunmadığını hiss edirsinizsə, bu prinsipin niyə olmadığını düşündüyünüzü söyləməlisiniz. | |
|---|---|
| Qiymətləndirmənin **həqiqiliyini** dəstəkləyən fəaliyyətlər | |
| Qiymətləndirmənin **etibarlılığını** dəstəkləyən fəaliyyətlər | |
| Qiymətləndirmənin **şəffaflığını və ədalətliliyini** dəstəkləyən fəaliyyətlər | |
| Qiymətləndirmənin **əlçatanlığını** dəstəkləyən fəaliyyətlər | |
| Qiymətləndirmənin **qarşılana bilinəcəyini** dəstəkləyən fəaliyyətlər | |

**Sözlərin sayı (şablon və əlavədən başqa):**

## 2. Modul 2. Qiymətləndirmə metod və vasitələrinin hazırlanması

### 2.1. İcmal

Bu modul etibarlı və həqiqi qiymətləndirmə nəticələrini verə biləcək qiymətləndirmə vasitələrini necə inkişaf etdirməyə yönəlmişdir. Modul 1-də tətbiq olunan prinsip və proseslərin qiymətləndirmə alətlərinin hazırlanmasında necə tətbiq olunduğunu anlamaları və onları öz tədris kontekstində tətbiq etmələri üçün hazırlanmışdır.

Bu bölmədə modul 2-nin tədrisini dəstəkləyən materiallar, fəaliyyətlər və qiymətləndirmə təlimatları mövcuddur. Bu modulda bütün təlim nəticələri və qiymətləndirmə meyarlarına toxunulur. Bunlara daxildir:

- İstifadə qaydaları ilə birlikdə təlimçinin istifadəsi üçün 26 slayd;
- Təhsilalanlar üçün 9 fəaliyyət;
- Bu modulun qiymətləndirilməsi üçün tələb olunan qiymətləndirmə vasitəsi və qiymətləndirmə təlimatı.

### 2.2. Modul 2. Müvafiq qiymətləndirmə metod və vasitələrinin hazırlanması

| | |
|---|---|
| **Modulun adı:** | Müvafiq qiymətləndirmə metod və vasitələrinin hazırlanması |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra konteksti üçün uyğun qiymətləndirmə metod və vasitələrini tərtib etməyi bacaracaq*. |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Qiymətləndirmənin metod və vasitələrini tərtib etmək | a) Verilmiş təlim nəticələrini (bilik, bacarıq) qiymətləndirmək üçün bir sıra metodların üstün və zəif cəhətlərini qiymətləndirir;<br>b) Müəyyən edilmiş təlim nəticələrinin düzgün qiymətləndirilməsinə nail olmaq üçün ən uyğun qiymətləndirmə metodunu (üsullarını) seçir;<br>c) Müəyyən edilmiş təlim nəticələrinin etibarlı və həqiqi qiymətləndirilməsini dəstəkləmək üçün qiymətləndirmə vasitələrini hazırlayır;<br>d) Qiymətləndirmə alətlərinin təsdiq edilməsi üçün tələb olunan prosesi izah edir. |

## 2.3. Modul 2. Tədris materialları

### 2.3.1. Giriş

Modulun bu hissəsindəndə aşağıdakı məlumatlar öz əksini tapır:

- Modulun məqsədini və onlardan nə gözlədiyini anlamaq;
- Modul 1-də tətbiq olunan əsas prinsip və prosesləri xatırlamaq;
- Modul 1 öyrənilənlərin qiymətləndirmə vasitələrinin işlənməsinə tətbiq etməyə hazırlanıb.

**Modulun məqsədi:**

Səriştənin qiymətləndirilməsi

Təcrübənin qiymətləndirilməsi üçün effektiv tapşırıq və vəsaitlərin hazırlanması.

- Modulun məqsədlərini və qiymətləndirmə meyarları ilə necə əlaqəli olduğu aşağıdakı kimi izah edilə bilər.
- Qiymətləndirmənin real və etibarlı olmasını təmin etmək üçün qiymətləndirmə vasitələri və tapşırıqlarının necə tərtib və titbiq edilməsini izah etmək;
- Bacarıqların qiymətləndirilməsi üçün uyğun gələn bir sıra praktiki qiymətləndirmə tapşırıqlarını ayırd edə bilmək;
- Təcrübənin qiymətləndirilməsi üçün ən uyğun gələn tapşırıqları seçmək;
- Təcrübənin həqiqi qiymətləndirilməsinə kömək etmək üçün qiymətləndirmə tapşırıqlarının bütün aspektlərini tərtib etmək;
- Həqiqi və etibarlı nəticələr hazırlamaq məqsədi ilə qiymətləndirmə tapşırıqlarının potensialını dəyərləndirmək.
- Aşağıdakı tapşırığı öyrənənlərin diqqətinin səriştənin qiymətləndirilməsinin əsas məsələsinə yönəltməyə kömək etmək üçün istifadə edilməlidir, yəni bilik və bacarıqların birləşməsindən istifadə edərək tələb olunan standartlara uyğun işləyə bilmək.
- Bu tapşırıq təhsilalanlara öyrətdikləri işə münasibətdə səriştənin nə demək olduğunu müəyyənləşdirməyə kömək etmək üçün hazırlanmışdır. Bu daha sonra modulda qiymətləndirmə vasitələrini tərtib etmək üçün lazım olan məlumatları toplamağa kömək edəcəkdir.

**TAPŞIRIQ 1**
**“Səriştənin” qiymətləndirilməsi**

- AzMKÇ Fərmanı 'səriştənin' 3 elementini müəyyənləşdirir:
  - **işi düzgün** yerinə yetirmək bacarığı
  - **iş (və ya təhsil) vəziyyətində** bilik, bacarıq, şəxsi, sosial və/ və ya metodiki qabiliyyətlərdən istifadə etmək qabiliyyəti
  - məşğulluqda tələb olunan standartlara uyğun **fəaliyyət göstərmək** bacarığı
- Kiçik qruplarda və ya cütlüklərdə işləyərək, müzakirə edin:
  - Tələbələri hansı işə hazırlayırsınız?
  - Bu iş üçün tələb olunan standartlar/ bu işlər müəyyən bir yerdədirmi? Əgər belədirsə, harada?
  - Şəxsin işi düzgün yerinə yetirməsi üçün bilik və bacarıqların əsas növləri hansılardır?

➢ Bu tapşırıq peşə kvalifikasiyalarında təlim nəticələrinin işəgötürənlərin iş yerlərində ehtiyac duyduğu bacarıqları əks etdirməsinin vacibliyini vurğulamağa kömək edir. Bunlar təhsilalanların qiymətləndirildiyi standartlardır.

➢ Qiymətləndirmə vasitələrinin işlənməsi ilə əlaqəli məsələlərə başlamazdan əvvəl qiymətləndirmə metodlarının, alətlərinin və tapşırıqlarının bir-biri ilə necə əlaqəli olduğunu dəqiq müəyyənləşdirmək lazımdır.

➢ Modul boyunca istifadə ediləcək 3 əsas termin bunlardır (Şəkil 2.1):

- Metodlar təlim nəticələrini necə qiymətləndirəcəyimizdir;
- Alətlər təlim nəticələrini qiymətləndirmək üçün istifadə edəcəyimiz vasitələrdir;
- Tapşırıqlar təhsilalanın qiymətləndirməni başa çatdırması üçün etməli olduğu vasitələrdir.

**Nə haqqında danışırıq?**

| | |
|---|---|
| **a) Qiymətləndirmə metodları** | a) Təlim nəticələrini hansı yolla qiymətləndirəcəyik (məsələn, müşahidə, yazılı imtahan, çox cavablı sınaq və s.) |
| **b) Qiymətləndirmə alətləri** | b) Qiymətləndirməni aparmaq üçün istifadə edəcəyimiz vasitələr (məsələn, imtahan kağızı, müşahidə ilə bağlı təlimatlar, sınaq üçün istifadə edilmiş kağız) |
| **c) Qiymətləndirmə tapşırıqları** | c) Qiymətləndirmədən keçmək üçün tələbənin yerinə yetirməli olduğu fəaliyyətlər (məsələn, onların cavablandırmalı olduğu imtahan sualları, müşahidəsi aparılacaq praktiki tapşırıqlar və s.) |

**Şəkil 2.1. Üç əsas terminin müəyyənləşdirilməsi**

- Qiymətləndirmə vasitəsində birdən çox tapşırıq ola bilər - məsələn aşpazlıq kvalifikasiyasında qiymətləndirmə aləti təhsilalanın bişirəcəyi yeməyi (məsələn, şorba) müəyyən edə bilər (Şəkil 2.2). Bu yeməyi hazırlamaq bir sıra müxtəlif tapşırıqları əhatə edəcək (məsələn, çiy inqrediyentləri hazırlamaq; şorba bişirmək; təmiz mətbəx mühitini təmin etmək və s.).




**Şəkil 2.2. Qiymətləndirmə vasitəsinin birdən çox ola bilməsi**

- Səriştəni qiymətləndirərkən fərqli bacarıq qruplarının bir iş mühitində necə bir yerdə olmasına baxmalı və qiymətləndirmənin bu qruplaşdırmanı əks etdirdiyinə əmin olmalıyıq.
- Modul 1-də öyrəndikləri 5 əsas prinsipi bir daha xatırlayaq (Şəkil 2.3).

**Qiymətləndirmənin 5 prinsipi**

***Bütün qiymətləndirmələr aşağıdakı kimi olmalıdır:***

| | |
|---|---|
| • **Həqiqi** | • Bu alət ondan gözlənilən formada, yəni məqsədəuyğun şəkildə qiymətləndirmə aparır. |
| • **Etibarlı** | • Qiymətləndirmənin harada, nə vaxt və kim tərəfindən aparılmasından asılı olmayaraq, bu alət bir-birini tamamlayan qərarların verilməsi ilə nəticələnir. |
| • **Şəffaf** | • Hər kəs qiymətləndirmənin nədən ibarət olduğunu anlayır və təhsillərinin ədalətli şəkildə qiymətləndiriləcəyinə inanırlar. |
| • **Əlçatan** | • Təhsilalanlar əmindirlər ki, onlar şəxsi xüsusiyyətlərindən asılı olmayaraq, qiymətləndirmədən keçə biləcəklər. |
| • **Qarşılana bilən** | • Təhsilverənlər əmindirlər ki, qiymətləndirmə heç bir əlavə resurs tələb etmədən, səmərəli şəkildə təmin edilə bilər. |

**Şəkil 2.3. Qiymətləndirmədinin 5 prinsipi**

### 2.3.2. Səriştə qiymətləndirilməsinə prinsipləri tətbiq etmək

Bu bölmənin məqsədi səriştənin qiymətləndirilməsi üçün etibarlı və həqiqi qiymətləndirmə vasitələrinin yaradılması ilə əlaqəli bəzi vacib məqamları vurğulamaqdır. İştirakçıların təlim nəticələrinə müraciət etmələrini təmin etmək üçün hazırlanmışdır 1: a və b.

- Səriştə qiymətləndirilərkən tez-tez xatırlanan bəzi çətinliklər şəkil 2.4-də öz əksini tapmışdır.




**Şəkil 2.4. Bəzi çətinliklərin qeyd edilməsi**

1. Çox vaxt qərar qəbul etmək üçün bir mütəxəssisin fikrinə ehtiyac olduğu güman edilir. Lakin, yadda saxlamalı əsas məsələlər var:
   - Bir mütəxəssisin rəyindən asılı olmaq qiymətləndirmənin etibarlılığına ciddi problem yarda bilər. Məsələn, eyni təhsilalanın üç fərqli mütəxəssis tərəfindən qiymətləndirildiyi təqdirdə, üç fərqli nəticə əldə etdiyimizi iddia edə bilərik. Qiymətləndirmə alətlərinin işlənməsində vacib bir məqsəd qiymətləndirmədə subyektivliyi məhdudlaşdırmaqdır.
   - Təlim nəticələri mütəxəssislər tərəfindən hazırlanmalıdır və həmin təlim nəticələri (və əlaqəli qiymətləndirmə meyarları) qiymətləndirmənin standartlarını müəyyən edir.
2. Səriştələrin qiymətləndirilməsi işini düzgün aparmaq üçün lazım olan bacarıqlar ölçülməlidir, lakin bu, şərtlərlə məhdudlaşa bilər. İş bacarıqlarını qiymətləndirmək üçün həqiqi bir mühit təmin etmək çətin ola bilər və qiymətləndirmə vaxt aparan, yaxud bahalı görünə bilər. Səriştənin qiymətləndirilməsi üçün qiymətləndirmə vasitələrini hazırlayarkən, əmin olmalıyıq ki, alətlər:
   - İş yerinin prioritetlərini mümkün qədər əks etdirir (yəni səriştələrin etibarlı

qiymətləndirilməsidir). Buraya fərdlərin işlərin həqiqətən iş yerində necə yerinə yetirildiyini nəzərə almaq daxildir. Məsələn, addımları buraxa bilər və ya səhvlər edə bilərlər. Qiymətləndirmədə nöqsan və səhvlərin necə aradan qaldırılacağını düşünmək vacibdir.

- Tədris tədarükçülər üçün idarə edilə bilər, yəni çox miqdarda resurslardan asılı deyildir.

**TAPŞIRIQ 2**

- Bu tapşırıq modul 1-də görülən işlərə əsaslanır (Şəkil 2.5).
- İştirakçılar tapşırığın necə yerinə yetiriləcəyi ilə bağlı biliklərin qiymətləndirilməsi (yəni necə edə biləcəyinizi bilmək) və bu tapşırıqdakı səriştənin qiymətləndirilməsi arasındakı fərq barədə düşünməyə təşviq etmək üçün hazırlanmışdır.

**TAPŞIRIQ 2**
**"Bilik" və "bacarığ"ın qiymətləndirilməsi**

*Kiçik qruplarla iş (bir nəfər yazmaq şərti ilə)*
*Vaxt: 4 dəqiqə*

Tələbələr aşağıdakı şərtləri qarşıladıqları halda qiymətləndirmə üçün ağlınıza gələn bütün metodlarını siyahısını hazırlayın:
a) rolları üçün tələb olunan tapşırıqları necə etməyi bilirlər
b) rolları üçün tələb olunan tapşırıqları edə bilirlər

(Bəzi metodlar hər ikisini əhatə edə bilər)

**Şəkil 2.5. Tapşırıq 2, bilik və bacarığın qiymətləndirilməsi**

- İştirakçıların sonda əldə etdiyi siyahı, öz qiymətləndirmə vasitələrini tərtib etməyə başlayanda istifadə ediləcəkdir
- Bu tapşırıqla bağlı rəy toplayarkən, iştirakçıların tapşırığı necə icra edəcəyi (nəzəri biliklər) ilə tapşırığı özü icra edə bilməyin (praktiki biliklər) arasındakı fərqi tam anladığından əmin olunmalıdır.
- Bu şəkildə kvalifikasiya (və ya modul) üçün ən uyğun qiymətləndirmə metodunu seçərkən nəyi yadda saxlamağın lazım olduğu vurğulanır (Şəkil 2.6):
    - Bacarıqlarımızı qiymətləndiririksə, təlim nəticələrinin ”real həyat” təcrübəsində necə bir araya gəldiyini nəzərə almalıyıq. Beləliklə, aşpazlarımız (Şəkil 5-də qeyd olunub) bir modulda gigiyena, digərində tərəvəz hazırlığı, üçüncüsündə isə şorba hazırlığını öyrənmiş ola bilər. Lakin hər üçü real həyatda şorba hazırlamaqda bir araya gəlir.
    - Bəzi təlim nəticələrinin və ya qiymətləndirmə meyarlarının başqaları ilə asanlıqla

qruplaşdırıla bilmədiklərini və ayrılıqda qiymətləndirilməsi lazım ola biləcəyini qeyd etmək vacibdir.

- Qiymətləndirmənin konteksti də əsas məqamdır. Qiymətləndirmənin resurs məhdudluğu çərçivəsində idarə olunması təmin edilməlidir.

**Ən yaxşı metodun seçilməsi**

*"Ən yaxşı metodu" təlim nəticələri və kontekst əsasında müəyyən etmək mümkündür. Aşağıdakıları nəzərə alın:*

**Təlim nəticələri:**

- "Real həyat" təcrübəsini əks etdirmək üçün bunları necə qruplaşdırmaq olar?
- Real həyatla bağlı tapşırıqda əks etdirilmiş bütün təlim nəticələri eyni modulun daxilindədirmi?
- Sizcə, nəticələrdən hər hansı birini ayrılıqda qiymətləndirmək lazımdırmı?

**Konteksti:**

- Nə realdır və qarşılana bilər? Bunları nəzərə alın:
  - Vaxt
  - Material və avadanlıqlar
  - Qiymətləndiricilər
  - Qiymətləndirməni tamamlamaq üçün tələbələrə lazım olan, lakin təlim nəticələrinə daxil edilməyən bacarıqlar

**Şəkil 2.6. Modul üçün ən uyğun qiymətləndirmənin seçilməsi**

**TAPŞIRIQ 3**

- Bu tapşırıq iştirakçılardan ən yaxşı qiymətləndirmə metodunu seçilməsini qiymətləndirəcəkləri modul və ya kvalifikasiyaya tətbiq etmələrini istəyir (Şəkil 2.7).

**TAPŞIRIQ 3**
**"Ən yaxşı metod"un seçilməsi**

Cüt və ya kiçik qruplar şəklində işləyin. Vaxt: 15 dəqiqə

Hazırda üzərində işlədiyiniz kvalifikasiyaların modullarından birinə nəzər salın.

- Real həyata uyğun tapşırıqlar hazırlamaq üçün hansı təlim nəticələrini qruplaşdırmaq olar?
- Nəzəri təlim nəticələrini praktiki nəticələrlə birləşdirə bilərsinizmi?
- Müxtəlif qruplara salınmış təlim nəticələrinin əldə edilməsini nümayiş etdirmək üçün hansı növ tapşırıqlar və ya metodlardan istifadə etmək mümkündür?

**Müəyyən etdiyiniz metodların siyahısını tərtib edin.**

**Şəkil 2.7. Qiymətləndiriləcək modul və ya kvalifikasiyaya tətbiq etmə**

- Addım 1 iştirakçılardan bacarıqların real həyatda tətbiq olunmasını əks etdirən şəkildə təlim nəticələrini qiymətləndirmə meyarlarını qruplaşdırmaq tələb olunur. Bu, biliklə əlaqəli meyarları bacarıq və ya praktik tətbiq ilə əlaqəli meyarlarla birləşdirmək deməkdir.
- Addım 2 iştirakçılardan bacarıqların real həyatda tətbiqinə ən yaxın olan qiymətləndirmə metodlarını seçmələrini istəyir.
- Bu şəkildə bölmədə göstərilən əsas məqamları ümumiləşdirmək üçün istifadə edilməlidir (Şəkil 2.8).

**Həqiqi və etibarlı alətlərin yaradılması**

Etibarlı və həqiqi alətlər aşağıdakı xüsusiyyətlərə malik tapşırıqları ehtiva edəcəkdir:

- mümkün olduğu qədər çox real həyata uyğun təcrübələri əks etdirir
- tələbələrdən təlim nəticələrində təyin edilmiş təcrübə standartını nümayiş etdirməyi tələb edir
- tələbələrə qavrayış və biliklərini **nümayiş** etdirməyə imkan verir
- Qiymətləndirilən kvalifikasiyalarla bağlı kontekstlərdə təkrarlana bilər
- "minimal səriştə" üçün nə lazım olduğunu təyin edir (yəni, imtahandan"keçmək" üçün nə lazımdır

**Şəkil 2.8. Əsas məqamları ümumiləşdirmək**

- Son məqam – "minimum səriştə" - modulun qalan hissəsində işlədiyimiz üçün çox vacib olacaqdır.
- Keçid üçün bunun tələb olunan minimum standart olduğunu vurğulamalısınız. Bu kvalifikasiya/modulda ən vacib meyardır. İştirakçıları bu meyar sayəsində məqbul və ya qeyri-məqbul arasında olan fərqi başa düşəcəklər, bu isə peşə təhsilində çox vacib bir fərqdir.
- Bu tapşırıq iştirakçıların tapşırıqlarını qiymətləndirməyə kömək etmək üçün daxil edilmişdir. Böyük Britaniyadakı Sürücü və Nəqliyyat Standartları Agentliyindən təhsilalan sürücünün təhlükələr barədə məlumatlılığını yoxlamaq üçün hazırlanmış onlayn testdir (Şəkil 2.9).
- Bundan və ya seçilən alternativ qiymətləndirmə tapşırığından istifadə edilə bilər. Tapşırıq müəyyən bir şəkildə bacarıqları sınamağı hədəfləyən "real həyat" tapşırığına uyğun olmalıdır.

Yol Hərəkəti və Nəqliyyat Standartları Agentliyi

*Bu testdə 3 klip vardır və hər birində 1 təhlükəli vəziyyət yaranır.*

*Təhlükəli vəziyyətlə qarşılaşdığınızı hiss etdiyiniz zaman videonun üzərinə basın və ya klikləyin. Bu, bir növ sizi müəyyən növ bir addım atmağa məcbur edəcək, məsələn sürəti və ya istiqaməti dəyişməli olacaqsınız. Sizin cavabı göstəmək üçün ekranın aşağısında qırmızı bayraq görünəcəkdir.*

*Yaranan təhlükəli vəziyyətlərin hər birinə görə siz 5-ə yaxın bal toplaya bilərsiniz. Təhlükəni nə qədər tez hiss edib, cavab versəniz, daha çox bal toplaya bilərsiniz.*

https://www.safedrivingforlife.info/practice-hazard-perception-test

**Şəkil 2.9. Onlayn test**

- Bu tapşırıqdan istifadə edilərsə: İştirakçılara təlimatları oxumaq üçün kifayət qədər vaxt verilməli, sonra video başlanılmalıdır.

**TAPŞIRIQ 4**

- Bu tapşırıq təhlükə qavrayışının qiymətləndirilməsinin davamı kimi tərtib edilmişdir (Şəkil 2.10).

## TAPŞIRIQ 4
## Təhlükənin qavranma səviyyəsini qiymətləndirən alətin qiymətləndirilməsi

*Cüt şəkildə işləməklə:* *Vaxt: 10 dəqiqə*

1. Bu tapşırıq hansı təlim nəticələrini qiymətləndirir?
2. Tapşırığın təlimatlarına nəzər salın. Onları nə dərəcədə asan başa düşürsünüz? Sizin üçün hər hansı çaşdırıcı və ya qeyri-müəyyən məqamlar oldumu?
3. Bir anlıq təsəvvür edin ki, bu tapşırıq kompüter deyil, insanlar tərəfindən qiymətləndirilir. Bu zaman namizədin etibarlı şəkildə qiymətləndirilməsi üçün onlar nə etməli idilər?
4. Hər bir klip üçün maksimum qiymət 5-dir. Keçid qiyməti isə (yəni "minimum səriştə") 8/15-dir. Bəs bu göstəricinin keçid balı kimi güclü və məhdud tərəfləri hansılardır?

**Şəkil 2.10. Təhlükə qavrayışının qiymətləndirilməsinin davamı**

**Təhlükə barədə məlumatlandırma tapşırığı üçün əsas məqamlar bunlardır:**

1. Tapşırıq praktiki biliyi qiymətləndirir (yəni mümkün bir təhlükəni müəyyənləşdirə bilməklə) və fərdin təhlükəyə nə qədər tez reaksiya verə biləcəyini qiymətləndirir (bacarıq). Bu, insanları təhlükələrə reaksiya verməyə öyrətməyin faydalı yoludur, lakin real vaxtda reaksiya verə biləcəklərini qiymətləndirmir.
2. Təlimatların güclü tərəfləri:
   - Təhsilalana kliplərin sayı deyilir
   - Təhsilalanın necə qiymətləndiriləcəyi barədə bəzi məlumatlar verilir (yəni 5 bala qədər).

   Təlimatların zəif tərəfləri:
   - Təhsilalanlara iki dəfə qeyd olunduğdan sonra ikinci bəndin ortasına qədər təhlükənin nə olduğu izah edilmir. Tərif də paraqrafda gizlidir. Tərif tapşırığın əvvəlində verilməlidir və aydın şəkildə vurğulanmalıdır. Anlaşılmaz təlimatlar tapşırığın etibarlılığına və həqiqiliyinə təsir göstərə bilər, çünki təhsilalanlar vacib məlumat hissələrini ötürə bilər.
   - Bəzi təlimatlar aydın deyil. Cümlələr çox uzundur və reaksiya göstərməyə dair fərqli seçimlər var. İkimənalı təlimatlar qiymətləndirmənin **etibarlılığına** təsir göstərə bilər, çünki təhsilalanlar onları müxtəlif yollarla şərh edə bilərlər.
   - Təhsilalanlara mövcud olan balların sayı deyilir, amma imtahandan keçmək üçün lazım olan bal deyilmir. Təhsilalanın əldə etməsi lazım olan standart şəffaf olmalıdır.
3. Bütün qiymətləndiricilər qiymətləndirmə sxemini bilməlidirlər: videoda hara 5/4/3/2/1 qiymətləri veriləcək. Qiymətləndiricilərdə bu təlimat yoxdursa, test **etibarlı** ola bilməz**.**
4. 8 keçid qiyməti məqbul görünür (50% -dən çox). Lakin 3 video var: bu o deməkdir ki, təhsilalan A videoda 4, B videosunda 4 və C video üçün 0 bal toplaya bilər. Bu, təhsilalanın bir əsas təhlükəni əldən verməsi deməkdir. Avtomobildə bu ciddi qəza ilə nəticələnə bilər. Daha yaxşı bir yanaşma, təhsilalanın hər videoda minimum 3 bal toplaması lazım olduğunu söyləmək olar.

### 2.3.3. Qiymətləndirmə alətinin hazırlanması

Bu bölmə iştirakçıları aşağıdakı qiymətləndirmə meyarlarını unvanlamağa hazırlayır: 1c və d

- Bu modulun qalan hissəsi üçün əsas məqsəd iştirakçılara əsas prinsipləri əks etdirən qiymətləndirmə tapşırıqlarının hazırlanmasında dəstək olmaqdır.
- Bu şəkildə modulun sonunda iştirakçıların hansı biliklərə yiyələnəcəyi göstərilir (Şəkil 2.11).
- Qalan tapşırıqlarda iştirakçılar addım-addım inkişaf mərhələlərindən keçirilir. Qrupdan asılı olaraq addımlarla bir-bir işləməyi və ya onları bir yerə yığmağı istəyə bilərsiniz.

**QEYD:** Bu mərhələdə iştirakçılar üçün modul 2 qiymətləndirməsindən tapşırıq şablonu təqdim edilə bilər. Bu, qiymətləndirmə alətinin müxtəlif elementlərini bir yerdə qeyd etməyə imkan yaradacaqdır.

- Tədris etdiyiniz kvalifikasiya modulu üzrə qiymətləndirmə alətinə daxil ediləcək tapşırığın ilkin versiyasını yaradın. Bura daxil olmalıdır :

  ✓ tapşırığın şərtləri
  ✓ keçid balı ilə bağlı aydın məlumat ("minimal səriştə")
  ✓ (lazım olan halda) yüksək qiymət almaq üçün tələb olunan şərtlər barədə məlumat
  ✓ qiymətləndiricinin etibarlı qiymətləndirmə aparmasına dəstək olmaq üçün istiqamətverici məlumat

**Şəkil 2.11. İştirakçıların inkişaf mərhələləri**

➢ 4-cü tapşırıqda qiymətləndirmə tapşırığının mətninin dəqiq olmaması halında baş verə biləcək bəzi məsələlər qeyd edilmişdir (Şəkil 2.12).

**Tapşırıqla bağlı xüsusi məqamlar**

Tapşırığın təlimatlarında aşağıdakılar olmalıdır:

- **Namizəddən tələb olunan bütün şərtləri dəqiq göstərin**. Məsələn, onlar bir neçə element daxil etməlidirlərsə, bu elementlər dəqiq şəkildə göstərilməlidir.
- **Mətniniz aydın və birmənalı olsun.** Xüsusən də, tapşırığın yalnız bir mənada şərh edilməsi vacib məqamdır.
- **Lazım olan hallarda, tələb olunan standart barədə məlumat təqdim edin.** Məsələn, burada mövcud olan vaxt çərçivəsində hazırlanmalı olan məhsulların sayı göstərilə bilər
- **Tapşırığın hansı hissələrinin daha vacib olduğunu dəqiq göstərin.** Tapşırığın hansısa hissələri digərlərinə nisbətdə daha vacibdirmi? Bununla bağlı hər hansı bir göstərici olduqda, namizəd də vaxtından daha faydalı istifadə edə bilir.

**Şəkil 2.12. Xüsusi məqamlar**

- **Detalların olmaması:** Qeyri-dəqiq ifadələr vacib məlumatların diqqətdən yayınmasına səbəb ola bilər. Bu səhv sualı hazırlayanların təlimatları dəqiq verməməsindən irəli gəlir. Məsələn, şorba hazırlama tapşırığında sualı hazırlayanlar təlimat olmadan da namizədlərin mətbəxdə şəxsi qoruyucu vasitələrdən (ŞQV) istifadə edəcəyini güman edə bilər. Lakin bu tapşırıqda göstərilməyibsə, namizədlər fərqli ŞQV-dan istifadə etməyin tələb olunmadığını fikirləşə bilər. Tapşırıq spesifikasiyasının **dəqiq təlimat** olduğunu unutmayın. Əgər nəsə yazıya daxil edilmirsə, namizədin bunu etməsini gözləyə bilməzsiniz.

- **Qeyri-müəyyənlik:** birdən çox şəkildə şərh edilə bilər. Nəticədə, keyfiyyətsiz sözlər etibarlılığı və həqiqiliyi təhdid edir.
- **Standartlar hansılardır?:** Lazımi standarta işləmək, səriştənin aspektlərindən biridir. Namizədin tapşırığı yerinə yetirərkən uyğun gəlməli olduğu bir standart meyarın olub- olmadığını müəyyən etmək vacibdir. Məsələn, təhlükələr barədə məlumatlandırma testində namizədin keçmək üçün hər üç təhlükəni müəyyənləşdirməsi lazım olduğunu vurğuladıq, çünki təhlükəni müəyyənləşdirməmək qəzaya səbəb ola bilər.
- **Ağırlıq nədir ?** Ağırlıq, tapşırığın ən vacib tərəflərini müəyyənləşdirməyə və müvafiq olaraq işarələr ayırmağa kömək etmək üçün istifadə olunur. Namizədlər qiymətləndirmə vaxtından səmərəli istifadə etməyi bilmələri üçün qiymətlərin necə ayrıldığını bilməlidirlər.

➢ Qiymətləndirmə tapşırıqlarında çox dəqiq bir sözün əhəmiyyətini vurğulamaq üçün bu məqamlardan istifadə edin.

➢ Tapşırığın tərifinin etibarlı və həqiqi qiymətləndirməni dəstəklədiyini yoxlamaq üçün aydın bir prosesin olmasının lazım olduğunu vurğulayın. Buraya tapşırıq üçün təsdiqləmə prosesinin olması daxildir. İlk addım olaraq, tapşırıq tərtibçiləri üçün hər hansı bir açıq-aşkar səhvləri müəyyənləşdirməyə kömək etmək üçün tapşırıqların mətninə dair ikinci rəy almaq həmişə yaxşı bir fikirdir.

**TAPŞIRIQ 5**

➢ Bu, iştirakçılara qiymətləndirmə tapşırığını hazırlamağa imkan verən bir sıra tapşırıqlardan birincisidir. Fərdi şəkildə işləsələr, bu tapşırığı öz qiymətləndirmələri kimi modul üçün təqdim edə bilərlər (Şəkil 2.13).




**Şəkil 2.13. Qiymətləndirmə tapşırığının hazırlanması**

➢ Bu tapşırıq namizədlər üçün dəqiq bir tapşırıq yaratmağa yönəldilmişdir.

➢ Bu tapşırıqlara dair rəy mətnin mümkün qədər aydın və dəqiq olması üçün

düzəldilməsinə kömək etməlidir.

- Qiymətləndirmə tapşırığının hazırlanmasında növbəti addım təqdim etmək üçün şəkil 2.14-dən istifadə edin.

**Tələb olunan resursların təyin edilməsi**

Praktiki bacarıqların qiymətləndirilməsi üçün çox zaman bunlar tələb olunur:

- xüsusi avadanlıq və ya materiallar
- xüsusi iş yeri

*Buna baxmayaraq, heç də bütün qiymətləndirmə mərkəzlərində resursların səviyyəsi eyni olmur.*

*Qiymətləndirmə alətlərində qiymətləndirməni aparmaq üçün tələb olunan **resursların minimum səviyyəsi** təyin edilməlidir.*

**Şəkil 2.14. Qiymətləndirmənin hazırlanmasında növbəti addım**

- Milli xüsusiyyətlərə görə eyni qiymətləndir-mənin ölkənin müxtəlif məktəblərində aparıla biləcəyini vurğulayın. Resurs spesifikasiyası qiymətləndirmənin məktəblərdə, müəssisələrdə idarə olunmasını və namizədlər üçün əlçatan olmasını təmin etməkdə vacibdir.
- Qiymətləndirmə tapşırığının bu hissəsi qiymətləndirməni aparmaq üçün lazım olan minimum mənbələri qeyd etməlidir.

**TAPŞIRIQ 6**

- Bu şəkil istifadəçiləri tapşırıq ilə istiqamətləndirmək üçündür. Hazırladıqları qiymətləndirmə tapşırığı üçün minimum resurs tələblərini qeyd etməlidirlər (Şəkil 2.15).

**TAPŞIRIQ 6**
**Resurslarla bağlı tələblərin təyin edilməsi**

*Cüt və ya kiçik qruplar şəklində işləyin* *Vaxt: 10 dəqiqə*

Hazırladığınız tapşırığa nəzər salın.

**Tapşırıqla bağlı şablonda,** qeyd edin:

- Tapşırığı yerinə yetirmək üçün tələb olunan minimum avadanlıq
- Tapşırıq üçün tələb olunan minimum material
- İşin yerinə yetirildiyi məkanla bağlı tələblər

Nəzərə alın:

- Bu resurslar qiymətləndirmənin aparılacağı bütün mərkəzlərdə mövcuddurmu?
- Əgər yoxdursa, o zaman siz bunun öhdəsindən necə gələcəksiniz?

**Şəkil 2.15. Resurslarla bağlı tələblər**

➢ Bu şəkil qiymətləndirmə alətinin əsas elementini - qiymətləndirici üçün təlimatı təqdim edir (Şəkil 2.16). Təlimatın qiymətləndirmə vasitəsinin etibarlılığı üçün vacib olduğu vurğulanmalıdır: bacarıq/səriştənin qiymətləndirilməsində subyektivliyin məhdudlaşdırılması mexanizmdir. Eyni qiymətləndirmə alətindən istifadə edən bütün qiymətləndiricilərin təlimata riayət etməsi vacibdir.




**Şəkil 2.16. Qiymətləndiricinin bilməli olduğu məqamlar**

➢ Təlimatlarda tələb olunan əsas məlumatlara aşağıdakılar daxildir:

- **Gözlənilən cavab**: Namizədlər bu tapşırığa cavab olaraq nə etməli, nə hazırlamalı və ya nə nümayiş etdirməlidirlər? Gözlənilən cavabın müəyyənləşdirilməsi tapşırığın təlim nəticələrinin/qiymətləndirmə meyarlarının dəqiq göstərilməsini təmin edir.
- **Qiymətlərin ayrılması:** qiymət bölgüsü tapşırıq daxilində çəki dərəcəsini müəyyənləşdirməyə imkan verir - bölgü hər kəsə tapşırığın ən vacib tərəflərinin nə olduğunu görməyə imkan verməlidir.
- **Keçmək üçün minimum tələblər:** Qiymətləndiricilər namizədlərin keçid üçün nümayiş etdirməli olduqları minimum standartları bilməlidirlər. Səriştənin müəyyənləşdirilməsində keçid və kəsr arasındakı bu səlahiyyət-"minimum səriştə" anlayışı üçün ən vacib məqamdır.
- **Yuxarı siniflərin** tərifi**:** Minimum səriştəyə dair tələblər tərtib edildikdən sonra daha yüksək qiymət qazanmaq üçün namizədin əlavə olaraq nə etməli olduğunu görə bilərsiniz.
- Qiymətləndiricinin nəzərə almalı olduğu **əlavə mülahizələr** varmı? Məsələn, şorba hazırlayarkən, aşpaz namizədimiz tapşırıqda göstərilməyən maddələri əlavə edə bilər və ya tapşırığı gözləniləndən fərqli qaydada yerinə yetirə bilər. Namizədlərin gözlənilən cavabdan fərqli işlər görməsi icazəlidirmi? Qiymətləndirici bu fərqləri necə

nəzərə almalıdır?

- **Qiymətləndirmə qərarının qeydləri:** qiymətləndirici onların qərarını necə qeyd etməlidir? Qiymətləndirmə qeydləri qiymətləndirmənin etibarlılığını və ədalətliliyini yoxlamaq üçün bizə vacibdir. Bu etibarlılığı və ədaləti təmin etmək üçün qiymətləndiricinin qərar verməsində əsaslı bir səbəb təqdim etməsi vacibdir. Bu məlumat çox vacibdir.

**TAPŞIRIQ 7**

- ➢ Tapşırığın hazırlanmasının növbəti mərhələsi - qiymətləndirici təlimatının hazırlanması şəkil 2.17-də təqdim olunmuşdur.

**TAPŞIRIQ 7**
**Qiymətləndirici nələri bilməlidir**

Təqdim edilmiş şablondan istifadə edərək, artıq əldə etmiş olduğunuz məlumatları bir araya gətirin:

- Tələbələr üçün sizin özünüzün ilkin formada yazdığınız tapşırıq
- Tapşırığa cavab olaraq tələb olunan addımlar
- Tapşırıq üzrə qiymətlər necə təyin edilir
- Minimum səriştəni (yəni keçid balı) nümayiş etdirmək üçün nə tələb olunur
- Daha yüksək bal toplamaq üçün nə lazımdır
- Mühakimə edən zaman qiymətləndirici nələri nəzərə almalıdır
- Qiymətləndirici öz mühakiməsini necə qeydə almalıdır

**Şəkil 2.17. İnkişafın növbəti mərhələsi**

**TAPŞIRIQ***

- ➢ Bu şəkil təlim nəticələrinin qiymətləndirmə meyarlarına uyğunluğunun vacibliyini vurğulamaq üçün istifadə edulməlidir (Şəkil 2.18).
- ➢ Bu xəritələnmə tapşırıq(lar)-ın bütün meyarları əhatə etməsini təmin etmək üçün vacibdir.

**Tapşırığın təlim nəticələri ilə əlaqələndirilməsi**

Yadda saxlayın:

- Qiymətləndirmə namizədin kvalifikasiya üzrə təlim nəticələrinə yiyələnmə səviyyəsini ölçən bir prosesdir.
- Tapşırıqla bağlı olan təlim nəticələri qiymətləndirici üçün məlumat bölməsində təqdim edilməlidir
- Qiymətləndirmə tapşırığının şərtlər hissəsində tapşırığın təlim nəticələri ilə əlaqəsini təsvir edən ayrıca bir sənəd tərtib edilməlidir.

**Şəkil 2.18. Meyarların uyğunluğunun vacibliyi**

- ➢ Bu məlumatı qeyd etməyin müxtəlif yolları var. Ən effektivi, tapşırıq(lar)-ın meyarlara necə bağlı olduğunu qeyd etmək üçün sadə bir cədvəl yaratmaqdır. Bu, bir sıra fərqli tapşırıqların hazırlanması üçün faydalıdır. Bu, hazırlayan şəxsə hansı meyarların əhatə

olunduğunu və ümumi qiymətləndirmədə boşluqları görməyə imkan yaradır.

***Qeyd 1:*** İzləyicinin nümunəsi bu paketin “Tələbə fəaliyyətləri” bölməsinə daxil edilmişdir. Bərbər tələbələri üçün 8 qiymətləndirmə tapşırığının təlim nəticələri və tək bir modul üçün qiymətləndirmə meyarları ilə necə uyğunlaşdıqlarını qeyd edir.

## TAPŞIRIQ 8

- Şəkildə tapşırığa dair təlimat öz əksini tapmışdır (Şəkil 2.19).
- İştirakçılar tapşırığın kvalifikasiya və ya modul təlim nəticələrinə və qiymətləndirmə meyarlarına necə müraciət etdiyini göstərmək üçün qeyd etməlidirlər.

**TAPŞIRIQ 8**
**Tapşırıqların təlim nəticələrinə uyğunlaşdırılması**

- Tapşırıqın təlim nəticələri, kvalifikasiya və ya modulun qiymətləndirmə meyarları ilə necə əlaqəli olduğunu nümayiş etdirməlisiniz.
- Hansı meyarlara ünvanladığını dərhal görməyə imkan verən bir qeyd yaratmalısınız. Siz edə bilərsiniz:
  - Kvalifikasiya standartının bir nüsxəsində müvafiq meyarları vurğulamaq *və ya*
  - Fərqli tapşırıqların meyarlara necə cavab verdiyini izləmək üçün istifadə edə biləcəyiniz bir cədvəl yaradın. *Bunun bir nümunəsini Tapşırıq 8 İş vərəqində görə bilərsiniz.*
- Tapşırıq şablonunda müvafiq təlim nəticələrini / qiymətləndirmə meyarlarını qeyd etdiyinizdən əmin olun.

**Şəkil 2.19. Tapşırığa dair təlimat**

- Bunu aşağıdakılarla edə bilərlər:
  - Kvalifikasiya standartı üzrə müvafiq qiymətləndirmə meyarlarını qeyd etmək;
  - Tapşırıq və qiymətləndirmə meyarları arasındakı əlaqəni göstərmək üçün bir cədvəl yaratmaq.
- Diqqətlərini tapşırıq 8 iş vərəqindəki nümunə cədvəlinə yönəldin.

**QEYD:** tapşırıq şablonunda tapşırıq və təlim nəticələri arasındakı xəritənin qeyd edilməsi üçün bir bölmə də var. İştirakçılar da bu hissəni tamamlamalıdırlar.

- Bu şəkildə tapşırığın hazırlanmasının son mərhələsi təqdim edilir: tapşırığın təsdiqlənməsi (Şəkil 2.20).
- Bu mərhələ, təhsilalanın kvalifikasiya/ modulun təlim nəticələrinə cavab verdiyini qiymətləndirmək üçün etibarlı və həqiqi bir vasitə təmin edə biləcəyindən əmin olmaq üçün tapşırığı yoxlayır.

## Qiymətləndirmə tapşırığının təsdiqlənməsi

Etibarlı və həqiqi nəticələr əldə etmək üçün qiymətləndirmə vasitəsində aşağıdakıları təmin edən yoxlamalar lazımdır:

***Tapşırıqlar***:
- *Aydın və birmənalıdır*
- *Təlim nəticələrinə/ qiymətləndirmə meyarlarına uyğundur*
- *Kvalifikasiya səviyyəsinə uyğundur*

***Qiymətləndirmə üçün lazım olan resurslar***:
- *Aydın təsvir edilmişdir*
- *Qiymətləndirmənin veriləcəyi bütün kontekstlər üçün məqsədəuyğun və əldə edilə biləndir*
- *əlim nəticələrinə/ qiymətləndirmə meyarlarına uyğundur*

***Qiymətləndiricilər üçün təlimata*** *daxildir :*
- *Gözlənilən cavab (lar) barədə məlumat*
- *Qiymətləndirmə zamanı nə edəcəyinə dair təlimat*
- *Qiymətləndirmə qərarına gəlmək və bu qərarı necə qeyd etmək barədə təlimat*

***Keçid (və digər qiymətlər) üçün minimum tələblər***:
- *Aydın təsvir edilmişdir*
- *Təlim nəticələri/ qiymətləndirmə meyarları ilə müqayisə edilmişdir*
- *Çəkildi (uyğun olduqda)*

**Şəkil 2.20. Tapşırığın təsdiqlənməsi, son mərhələ**

- Bu, **təsdiqləmə** prosesinin vacib mərhələsidir. Bu, onun hazırlanması ilə məşğul olmayan və həm kvalifikasiya, həm də qiymətləndirmə sahəsində təcrübəsi olan insanlar tərəfindən nəzərdən keçirilmiş vəzifəni əhatə edir. Bu **təsdiqləmə prosesinin** bir hissəsidir.
- İştirakçıları öz işində bu vəzifəni kimin götürməli olduğunu müəyyənləşdirməyə təşviq edin. Təsdiqləyicilər üçün əlavə təlimin verildiyi vurğulanmalıdır.
- Şəkildə təsdiqləyici hissəsi kimi nəzərdən keçirilməli olan 4 əsas sahə vurğulanır.

### TAPŞIRIQ 9

- Bu tapşırıq iştirakçılara aşağıdakı imkanları təmin edir (Şəkil 2.21):
  - Hazırladıqları tapşırıq barədə rəy almaq
  - Qiymətləndirmə tapşırıqlarını qiymətləndirməklə bacarıqlarını inkişaf etdirmək

**TAPŞIRIQ 9**

**Qiymətləndirmə tapşırığının nəzərdən keçirilməsi**

İlkin qiymətləndirmə tapşırığının şərtlərini tamamladıqdan sonra, növbəti mərhələ bu sənədi digər qiymətləndirmə ekspertləri ilə birgə sınaqdan keçirməkdir.

Kiçik qruplarla işləyin. Növbə ilə təqdim edin və rəylərinizi bildirin.

- Təqdimatçı kimi: Bunlar haqda məlumat verin:
  - Tapşırığın məqsədi nədir
  - Namizəd nə etməlidir
  - Tapşırıq hansı təlim nəticələri ilə əlaqəlidir
  - Minimal səriştənin göstəriciləri hansılardır
  - Qiymətlər necə bölüşdürülür
  - Qiymətləndiricilər hansı məqamları nəzərə almalıdırlar
- Dinləyici kimi sizin rolunuz tapşırığın həqiqi və etibarlı nəticələr verməsini təmin etməkdə təqdimat edən həmkarınıza kömək etməkdir. Rəyinizi bildirən zaman bu məqamı nəzərə alın.

**Şəkil 2.21. Qiymətləndirmə tapşırığı**

- Bu rəyi modul üçün qiymətləndirmə hissəsi olaraq təqdim etməzdən əvvəl iştirakçılara tapşırıqların nəzərdən keçirilməsinin vacib olduğu qeyd edilməlidir.
- Bu şəkil, istifadəçilər bu modulun təlim nəticələrinə qarşı irəliləyişlərini qiymətləndirməyə və daha çox dəstəyə ehtiyacı olan sahələri müəyyən etməyə kömək edir (Şəkil 2.22).




**Şəkil 2.22. İrəliləyişlərin qiymətləndirilməsi**

Modul 2-nin qiymətləndirmə tələbləri şəkil 2.23-də ümumiləşdirilmişdir.
Siz etməlisiniz:

- İştirakçılara qiymətləndirmə spesifikasiyası, qiymətləndirmə tapşırığı və şablonunun surəti təqdim edilməlidir.
- İştirakçılara modul zamanı hazırladıqları tapşırığı son qiymətləndirmə üçün təqdim edəcəkləri xatırladılmalıdır. Hər hansı bir düzəliş etmələrinə imkan yaradılmalıdır. Tapşırıq verilən şablonda təqdim edilməlidir.
- İştirakçılardan niyə bu qiymətləndirmə alətindən istifadə etdikləri soruşulmalıdır.




**Şəkil 2.23. Qiymətləndirmə tələb-lərinin ümumiləşdirilməsi**

## 2.4. Modul 2: Təhsilalanın fəaliyyətləri

***Tapşırıq 1: Səriştənin qiymətləndirilməsi***

AzNQF Fərmanı "səriştələrin" 3 elementini müəyyən edir:

a) **İşi** düzgün **yerinə yetirmək** bacarığı;

b) **İş** (və ya təhsil) **vəziyyətində** bilik, bacarıq, şəxsi, sosial və ya metodiki qabiliyyətlərdən **istifadə** etmək bacarığı;

c) Məşğulluqda tələb olunan standartlara uyğun **fəaliyyət göstərmək** bacarığı.

Kiçik qruplarda və ya cütlüklərlə işləyərək aşağıdakı suallar müzakirə edilməlidir:

1. Tələbələri hansı işə hazırlayırsınız?

2. Bu iş (işlər) üçün tələb olunan standartlar haradasa müəyyən edilmişdir? Əgər elədirsə, harada?

3. Şəxsin işi düzgün yerinə yetirməsi üçün bilik və bacarıqların əsas kategoriyaları hansılardır?

### *TAPŞIRIQ 2 : "Bilik" və "bacarığ"ın qiymətləndirilməsi*

*Kiçik qruplarla iş (bir nəfər yazmaq şərti ilə)*

Tələbələr aşağıdakı şərtləri qarşıladıqları halda qiymətləndirmə üçün ağlınıza gələn bütün metodların siyahısını hazırlayın:

a) Rolları üçün tələb olunan tapşırıqları etməyi bilirlər;

b) Rolları üçün tələb olunan tapşırıqları etməyi bacarırlar;

*(Bəzi metodlar hər ikisini əhatə edə bilər)*

***TAPŞIRIQ 3: Təhlükənin qavranma səviyyəsini qiymətləndirən alətin qiymətləndirilməsi***

Cüt şəkildə işləməklə:

1. Bu tapşırıq hansı təlim nəticələrini qiymətləndirir?

2. Tapşırığın təlimatlarına nəzər salın. Onları nə dərəcədə asan başa düşürsünüz? Sizin üçün hər hansı çaşdırıcı və ya qeyri-müəyyən məqamlar oldumu?

Bu testdə 3 klip vardır və hər birində 1 təhlükəli vəziyyət yaranır.
Təhlükəli vəziyyətlə qarşılaşdığınızı hiss etdiyiniz zaman videonun üzərinə basın və ya klikləyin. Bu, bir növ sizi müəyyən növ bir addım atmağa məcbur edəcək, məsələn, sürəti və ya istiqaməti dəyişməli olacaqsınız. Sizin cavabı göstəmək üçün ekranın aşağısında qırmızı bayraq görünəcəkdir.
Yaranan təhlükəli vəziyyətlərin hər birinə görə siz 5-ə yaxın bal toplaya bilərsiniz. Təhlükəni nə qədər tez hiss edib, cavab versəniz, daha çox bal toplaya bilərsiniz.

3. Bir anlıq təsəvvür edin ki, bu tapşırıq kompüter deyil, insanlar tərəfindən qiymətləndirilir. Bu zaman namizədin etibarlı şəkildə qiymətləndirilməsi üçün onlar nə etməli idilər?

4. Hər bir klip üçün maksimum qiymət 5-dir. Keçid qiyməti isə (yəni "minimum səriştə") 8/15-dir. Bəs bu göstəricinin keçid balı kimi güclü və məhdud tərəfləri hansılardır?

***TAPŞIRIQ 4: Tapşırıqla bağlı xüsusi məlumatlar***

- Əvvəlki şəkildə təqdim edilmiş təlimata diqqət edək, hazırladığınız tapşırıq üçün təlimatlar hazırlayın.

- Əmin olun ki:
  - Tapşırıq aydındır və birmənalı sözlərdən istifadə edilmişdir;
  - Tələb olunan standart dəqiq təsvir edilmişdir;
  - Tapşırığın müxtəlif hissələri arasında vaciblik səviyyəsi aydın görünür (uyğun olan hallarda).

- Tapşırığınızı flipçartda yazın.

- Sizdən tapşırığı paylaşmaq rica ediləcək ki, hər kəs rəy verə bilsin.

## *TAPŞIRIQ 5: Resurslarla bağlı tələblərin təyin edilməsi*

Hazırladığınız tapşırığa nəzər salın.

**Tapşırıqla bağlı şablonda,** qeyd edin:

- Tapşırığı yerinə yetirmək üçün tələb olunan minimum avadanlıq
- Tapşırıq üçün tələb olunan minimum material
- İşin yerinə yetirildiyi məkanla bağlı tələblər

Nəzərə alın:

- Bu resurslar qiymətləndirmənin aparılacağı bütün mərkəzlərdə mövcuddurmu?
- Əgər yoxdursa, o zaman siz bunun öhdəsindən necə gələcəksiniz?

## *TAPŞIRIQ 6: Qiymətləndirici nələri bilməlidir*

Təqdim edilmiş şablondan istifadə edərək, artıq əldə etmiş olduğunuz məlumatları bir araya gətirin:

- Tələbələr üçün sizin özünüzün ilkin formada yazdığınız tapşırıq;
- Tapşırığa cavab olaraq tələb olunan addımlar;
- Tapşırıq üzrə qiymətlər necə təyin edilir;
- Minimum səriştəni (yəni keçid balı) nümayiş etdirmək üçün nə tələb olunur;
- Daha yüksək bal toplamaq üçün nə lazımdır;
- Mühakimə edən zaman qiymətləndirici nələri nəzərə almalıdır;
- Qiymətləndirici öz mühakiməsini necə qeydə almalıdır.

### *TAPŞIRIQ 7: Tapşırığın təlim nəticələrtinə uyğunlaşdırılması*

Tapşırıqın təlim nəticələri və kvalifikasiya və ya modulun qiymətləndirmə meyarları ilə necə əlaqəli olduğunu nümayiş etdirməlisiniz.

Siz etməlisiniz

➢ Hansı meyarlara müraciət edildiyini dərhal görməyə imkan verən bir qeyd yaradın. Siz vurğulaya bilərsiniz:

- Kvalifikasiya standartının nüsxəsindəki müvafiq meyarlar.
- Fərqli tapşırıqların meyarlara necə cavab verdiyini izləmək üçün istifadə edə biləcəyiniz bir cədvəl yaradın. Bunun bir nümunəsini aşağıda görə bilərsiniz.
- Tapşırıq şablonunda müvafiq təlim nəticələrini qiymətləndirmə meyarlarını qeyd etdiyinizdən əmin olun.

| Modul | TN-lər | Qiymətləndirmə meyarı | Theory Test | Tapşırıq 1 | Tapşırıq 2 | Tapşırıq 3 | Tapşırıq 4 | Tapşırıq 5 | Tapşırıq 6 | Tapşırıq 7 | Tapşırıq 8 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sual nömrələrini müvafiq qiymətləndirmə meyarlarına uyğunlaşdırmaq | İş yerini hazırlamaq | Baxımsız salonda problemləri müəyyənləşdirmək | Saç tərzini düzəltmək üçün lazım olan materialları və avadanlıqları seçmək | Lino Russo hörüyünü nümayiş etdirmək | Hündür model (topuz) nümayiş etdirmək | Bob saç kəsimi etmək və tərtib etmək | Kaskad formalı saç düzümünü kəsmək və tərz edmək | Balyaj effekti üçün saçı boyamaq |
| 1: Saç ustası işinin təşkili (60 saat) | 1: sənaye sanitariyası və qaydalarına əməl etmək | 1. Alətləri və instrumentləri dezinfeksiya etmək | | ■ | ■ | ■ | | | ■ | ■ | ■ |
| | | 2. Sterilizator daxilindəki alətlərin sterilizasiyasını izah etmək və göstərmək | | ■ | ■ | ■ | | | ■ | ■ | ■ |
| | | 3. Saç ustası, gigiyenik təmizlik və istifadə ediləcək vasitələrin hazırlanması üçün şəxsi gigiyena qaydalarını anlamaq və izah etmək | | ■ | ■ | | ■ | ■ | ■ | ■ | ■ |
| | | 4. İlk yardımı anlamaq və təmin edə bilmək | | | | ■ | | | ■ | ■ | ■ |
| | 2: təhlükəsizlik və əməyin mühafizəsi qaydalarına əməl etmək | 1. Elektrik cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarını bilmək və nümayiş etdirmək | | ■ | ■ | ■ | | | ■ | ■ | |
| | | 2. Təhlükəsizlik və iş qaydalarını izah etmək | | ■ | ■ | ■ | | | ■ | ■ | ■ |
| | | 3. Kimyəvi maddələrin istifadəsi zamanı təhlükəsizlik qaydalarına əməl etmək və izah etmək | | ■ | ■ | ■ | | | | | ■ |
| | | 4. Yanğın təhlükəsizliyi qaydalarını bilmək və yanğından mühafizə vasitələrindən istifadə qaydalarını nümayiş etdirmək | | ■ | ■ | ■ | | | ■ | ■ | |
| | 3: saç ustası iş yerinin təşkili barədə məlumatlı olmaq | 1. İş yerinin düzgün işıqlandırılmasını bilmək və izah etmək | | ■ | ■ | ■ | ■ | ■ | ■ | ■ | ■ |
| | | 2. Kondisioner sisteminin seçilməsini və otağın standarta uyğun seçilməsini anlamaq və izah etmək | | ■ | ■ | ■ | | | ■ | ■ | |
| | | 3. İş yerini düzgün qurduqdan sonra su, qaz və kanalizasiya sisteminin necə qurulacağını anlamaq və izah etmək | | ■ | ■ | | | | ■ | ■ | ■ |

Bu, saç ustaları üçün programdan bir moduldur. 3 təlim nəticəsinə ayrılmış 11 qiymətləndirmə meyyarı var. 8 qiymətləndirmə tapşırığı var. Hər tapşırıq ünvanladığı qiymətləndirmə meyarlarının dərəcəsinə uyğunlaşdırılır.

## *TAPŞIRIQ 8: Qiymətləndirmə tapşırığının nəzərdən keçirilməsi*

İlkin qiymətləndirmə tapşırığının şərtlərini tamamladıqdan sonra növbəti mərhələ bu sənədi digər qiymətləndirmə ekspertləri ilə birgə sınaqdan keçirməkdir.

*Kiçik qruplarla işləyin*. Növbə ilə təqdim edin və rəylərinizi bildirin.

- **Təqdimatçı kimi:** Bunlar haqda məlumat verin:
  - Tapşırığın məqsədi nədir?
  - Namizəd nə etməlidir?
  - Tapşırıq hansı təlim nəticələri ilə əlaqəlidir?
  - Minimal səriştənin göstəriciləri hansılardır?
  - Qiymətlər necə bölüşdürülür?
  - Qiymətləndiricilər hansı məqamları nəzərə almalıdırlar?

- Dinləyici kimi sizin rolunuz tapşırığın həqiqi və etibarlı nəticələr verməsini təmin etməkdə təqdimat edən həmkarınıza kömək etməkdir. Rəyinizi bildirən zaman bu məqamı nəzərə alın.

## 2.5. Modul 2: Qiymətləndirmə

### 2.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi

| **Modulun adı** | **Modul 2: Qiymətləndirmə metod və vasitələrinin hazırlanması** |
|---|---|
| **Modulun məzmunu**<br>*Bu modulun təlim nəticələri nələrdir?* | |
| Bu modul 1 təlim nəticəsindən ibarətdir. Namizəd:<br>1. Qiymətləndirmə üçün metod və vasitələri hazırlamalıdır | |
| **Qiymətləndirməyə yanaşma**<br>*Təlim nəticələri necə qiymətləndiriləcəkdir?*<br>*Qiymətləndirmə vasitəsi və ya vasitələrinin hansı növü (lər) istifadə ediləcək?* | |
| Bu moduldakı təlim nəticələri tapşırıqdan istifadə edərək qiymətləndiriləcəkdir.<br>Tapşırıq namizəddən öz konteksti üçün qiymətləndirmə vasitəsini hazırlamağı və ondan istifadə üçün əsaslandırma tələb edir.<br>Bu Modul, 1-ci modul ilə eyni vaxtda qiymətləndirilə bilər. | |
| **Qiymətləndirmə vasitələri**<br>*Hər qiymətləndirmə vasitəsindən istifadə ediləcək:*<br>• *Alət özündə hansı növ tapşırıq və ya tapşırıqları ehtiva edir?*<br>• *Hansı qiymətləndirmə meyarlarına tətbiq edilir?*<br>• *Tapşırqları başa çatdırmaq üçün namizəd nə etməlidir?* | |
| 1. Namizədlərdən bu kontekstdə istifadə üçün uyğun qiymətləndirmə aləti və bu vasitənin niyə məqsədəuyğun olduğunu qısa izahatla birlikdə hazırlamaları tələb olunur.<br>1. Qiymətləndirmə aləti həqiqi və etibarlı qiymətləndirmə üçün mexanizm təmin etdiyinində əmin olmaq üçün tələb olunan bütün elementləri ehtiva etməlidir. Bura daxildir:<br>➢ Namizəd üçün tapşırıq;<br>➢ Qiymətləndirici üçün təlimat, aşağıda verilənlər daxil olmaqla:<br>• Qiymətləndirici tapşırığa cavab olaraq nə axtarmalıdır?<br>• Keçid dərəcəsi üçün minimum tələb nədir?<br>• Qiymətləndirici fəaliyyətini necə qiymətləndirməlidir və onların qərarını qeyd etməlidir?<br>➢ Gözlənilən cavabın müvafiq təlim nəticəsindəki qiymətləndirmə meyarları ilə necə əlaqəli olduğunu göstərən bir cədvəl;<br>➢ Bu qiymətləndirmə tapşırığı üçün tələb olunan mənbələr və şərtlər.<br>2. Namizəd, vasitənin hər hansı bir faydası və məhdudiyyətini qeyd edərək | |

hazırladıqları vasitə üçün qısa yazılı əsaslandırma təqdim etməlidir. Onlar tapşırığın həqiqi və etibarlı qiymətləndirmə aləti kimi istifadəsində təsdiqlənməsi üçün lazım olan addımları təsvir etməlidirlər. Yazılı əsaslandırma **750 sözdən** çox olmamalıdır.

2. Tapşırıq bu modulda təlim nəticələrinə daxil edilmiş bütün qiymətləndirmə meyarlarına cavab verməlidir:

**TN 1: Qiymətləndirmənin metod və vasitələrini tərtib etmək**

*Uğurlu namizəd:*

a) Verilmiş təlim nəticələrini (bilik, bacarıq) qiymətləndirmək üçün bir sıra metodların üstün və zəif cəhətlərini qiymətləndirir;
b) Müəyyən edilmiş təlim nəticələrinin düzgün qiymətləndirilməsinə nail olmaq üçün ən uyğun qiymətləndirmə metodunu (üsullarını) seçir;
c) Müəyyən edilmiş təlim nəticələrinin etibarlı və həqiqi qiymətləndirilməsini dəstəkləmək üçün qiymətləndirmə vasitələrini hazırlayır;
d) Qiymətləndirmə alətlərinin təsdiq edilməsi üçün tələb olunan prosesi izah edir.

**Keçid dərəcəsinə nail olmaq üçün minimum tələblər**

Aşağıdakı cədvəldə bu qiymətləndirmə üçün məzmun tələbləri və qiymətləndirməni keçmək üçün minimum tələblər təsvir edilmişdir.

| Məzmun tələbləri | Keçid dərəcəsinə cavab vermək üçün minimum tələblər |
|---|---|
| Namizəd qiymətləndirmə vasitəsini və müşayiət edən əsaslandırmanı hazırlamalıdır, hansı ki:<br>1. Təlim nəticələrinin müəyyən edilmiş dəstinin tələblərini əks etdirir (1a və c)<br>2. Qiymətləndiricilərin müəyyən edilmiş təlim nəticələrinin həqiqi və etibarlı qiymətləndirilməsini təmin edə bilməsi üçün lazımi təlimatı təmin edir (1a və c)<br>3. Alət üstünlüklərinin və məhdudiyyətlərinin təhlili daxil olmaqla seçim növünün əsaslandırılmasını təmin edir (1b)<br>4. Qiymətləndirmə alətindən istifadə üçün təsdiqləmə prosesini təsvir edir (1d) | Keçid dərəcəsində, tapşırıqa ən azı aşağıdakılar daxil olmalıdır:<br>➢ Tapşırıq, hansı ki:<br>• Namizəd üçün heç bir qeyri-müəyyənlik olmayan aydın bir dildə ifadə olunub;<br>• Qiymətləndirilən meyarlara uyğundur.<br>➢ Qiymətləndiricinin həqiqi və etibarlı qiymətləndirmə aparması üçün lazım olan məlumatlar;<br>➢ Qiymətləndirmə alətinin seçilməsini dəstəkləmək üçün lazımi əsaslandırma, hər hansı bir üstünlük və ya məhdudiyyət barədə adekvat məlumatlandırma;<br>➢ Qiymətləndirmə vasitəsinin istifadəsini təsdiqləmək üçün minimum hərəkət. |

### 2.5.2. Qiymətləndirmə tapşırığı və şablonu

**Modul 2: Qiymətləndirmə metod və vasitələrinin hazırlanması**

**Kontekstiniz üçün qiymətləndirmə vasitəsinin hazırlanması**

➢ Kontekstinizdə praktik qiymətləndirməyə istifadəsi üçün əsaslandırılmış dəstəklə qiymətləndirmə vasitəsi hazırlayın. Qiymətləndirmə aləti həqiqi və etibarlı qiymətləndirməni dəstəklədiyini təmin etmək üçün lazım olan bütün elementləri ehtiva etməlidir.

a) Qiymətləndirmə vasitənizə daxil olmalıdır:
- Namizəd üçün dəqiq tapşırıq təlimatları;
- Qiymətləndirici üçün təlimat, aşağıda verilənlər daxil olmaqla:
  - Qiymətləndirici tapşırığa cavab olaraq nə axtarmalıdır?
  - Keçid dərəcəsi üçün minimum tələb nədir?
  - Qiymətləndiricinin fəaliyyəti necə qiymətləndirməli və qərarını qeyd etməlidir;
- Tapşırıq və gözlənilən cavabın müvafiq təlim nəticələrində qiymətləndirmə meyarları ilə necə əlaqəli olduğunu göstərən məlumatlar;
- Bu qiymətləndirmə tapşırığı üçün tələb olunan mənbələrin və ya şərtlərin müəyyən edilməsi.

b) Əsaslandırma aşağıda verilənlər kimi olmalıdır:
- Bunun niyə müəyyənləşdirdiyiniz təlim nəticələrini qiymətləndirmək üçün uyğun bir vasitə olduğunu izah etməlidir;
- Vasitənin hər hansı bir faydası və məhdudiyyətini qeyd etməlidir;
- Tapşırığın həqiqi və etibarlı qiymətləndirmə vasitəsi kimi istifadə üçün təsdiqlənməsinə lazım olan addımları təsvir etməlidir.

Əsaslandırma 750 sözdən çox olmamalıdır

➢ Qiymətləndirmə vasitəsi və müşayiət olunan əsaslandırma əlavə edilmiş şablonda təqdim edilməlidir.

**Modul 2: QİYMƏTLƏNDİRMƏ VASİTƏSİNİN ŞABLONU**

| | |
|---|---|
| **TAPŞIRIĞIN ADI** | |
| **Namizəd üçün tapşırıq təlimatları**<br>Bunları namizədə müraciət edərək tam şəkildə yazmalısınız | |
| **Qiymətləndiricilər üçün təlimat**<br>Tapşırığı uğurla başa çatdırmaq üçün namizədin nə etməsi lazımdır? Keçmək üçün minimum tələb nədir?<br>Bu məlumat qiymətləndiricinin tapşırığı qiymətləndirməsini istiqamətləndirmək üçündür. | |
| **TN-lərinə və qiymətləndirmə meyarlarına keçidlər:**<br>Bu tapşırıq hansı TN-lərini və meyarlarını qiymətləndirir? | |
| **Mənbələr:**<br>Bu tapşırığı başa çatdırmaq üçün lazım olan hər hansı bir mənbə | |
| **Qeyd:**<br>Qiymətləndiricinin tapşırıq qiymətləndirməsini necə qeyd etməsi barədə təlimatları varmı? | |
| **ƏSASLANDIRMA**<br>Bu vasitə üçün əsaslandırmanı şablonun bu hissəsində yazın. | |

# 3. Modul 3: Qiymətləndirmə prosesinin planlaşdırılması

## 3.1. İcmal

3 və 4-cü modullarda səriştələrin qiymətləndirilməsinin praktik aspektlərinə diqqət yetirilməlidir.

- Modul 3 qiymətləndirmə prosesinin planlaşdırılmasında keyfiyyətin təmin edilməsi üçün lazım olan inzibati yoxlamaya baxır.
- Modul 4 qiymətləndiricinin qiymətləndirməni necə apardığına və qiymətləndirmə qərarına gəldiyinə baxır.

Hər iki modul, modul 1 və 2-də işlənmiş bacarıq və anlayışın iştirakçıların öz kontekstində praktik tətbiqi üzərində qurulub. Nəticədə, bu modulda daha az tədris materialı var və iştirakçıların öyrəndiklərini tətbiq etmək üçün onlara daha çox dəstək olunur.

Bu bölmədə modul 3-ün tədris olunmasını dəstəkləyən materiallar, fəaliyyət və qiymətləndirmə təlimatları mövcuddur. Bu moduldakı bütün təlim nəticələri və qiymətləndirmə meyarlarına toxunulur. Bunlara daxildir:

- İstifadə qaydaları ilə birlikdə təlimçinin istifadəsi üçün şəkillər;
- Təhsilalanlar üçün 6 fəaliyyət;
- Bu modulun qiymətləndirilməsi üçün tələb olunan qiymətləndirmə vasitəsi və qiymətləndirmə təlimatı.

**Qeyd:**
AzMKÇ kvalifikasiyalarında qiymətləndirmənin keyfiyyət təminatı ilə bağlı milli qaydalar dəyişə bilər. Bu modulu təqdim etməzdən əvvəl təlimçilər milli qaydaların mövcudluğunu və statusunu yoxlamalıdırlar.

### 3.2. Təlim nəticələri və Qiymətləndirmə meyarları

| | |
|---|---|
| **Modulun adı:** | Qiymətləndirmə prosesinin planlaşdırılması |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra, qiymətləndirmə prosesinin təşkilini və bütün namizədlər üçün əlçatanlılığını təmin etməyi bacaracaq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Qiymətləndirmə prosesini təşkil etmək | a) Qiymətləndirmədən əvvəl, qiymətləndirmə zamanı və sonrakı fəaliyyətlərin təhlükəsizliyini təmin edən hazırlıqların aparılmasını təmin edir;<br>b) Qiymətləndirmədə tələblərə cavab verən uyğun mənbələrin və məkanın (məs: praktiki və nəzəri fəaliyyətlər üçün resurslar, kənar səslər, əyləşdirmə üsulu, mütəxəssis qiymətləndiricilər) seçilməsini təmin edir. |
| 2. Qiymətləndirmənin bütün namizədlər üçün əlçatanlılığını təmin etmək | a) Praktiki hazırlıqlar daxil olmaqla qiymətləndirmənin tələbləri barədə bütün namizədlərin xəbərdar olmasını təmin edir;<br>b) Xüsusi dəstəyə ehtiyacı olan namizədləri və dəstəyin növünü müəyyən edir;<br>c) Tələb olunan hər hansı xüsusi dəstək üçün hazırlıqların aparılmasını təmin edir. |

## 3.3. Modul 3: Tədris materialları

### 3.3.1. Giriş

Təlimin açılış hissəsinin məqsədi iştirakçıların aşağıdakıları bacardığından əmin olmaqdır:

- Modulun məqsədini və onlardan nə gözlənildiyini anlamaq;
- Lazım olan inzibati hazırlıqların çeşidini və niyə vacib olduğunu izah etmək;
- Hazırda qiymətləndirmə kontekstində aparılmış inzibati hazırlıq və yoxlamaları müəyyənləşdirməyə və təhlil etməyə başlamaq.
- Modulun mövzusu qiymətləndirmə prosesinin planlaşdırılmasıdır. Bu modul qiymətləndirmədə keyfiyyəti təmin etmək üçün inzibati prosesin vacibliyini vurğulayır. Burada namizədin fəaliyyətinə dair qiymətləndirmə aparmağa və qiymətləndiricinin qərar verməyinə diqqət yetirilmir. Həmin mövzulara modul 4-də baxılacaqdır.

Bu modulun məqsədi:

- Səriştənin qiymətləndirilməsinin lazımi səviyyədə aparılmasını təmin etmək üçün tələb olunan inzibati yoxlamaları sırayla izah edir;
- Qiymətləndirmənin bütün namizədlər üçün əlçatan olmasını təmin etmək üçün lazım olan inzibati yoxlamaları izah edir;
- Bütün tələb olunan inzibati yoxlamalara sizin həyata keçirdiyiniz iş kontekstində baxmanızı təmin edir.
- Şəkil 3.1-də modul 3-ün ünvanladığı qiymətləndirmə həyat dövrəsindəki məqamları göstərilmişdir. Bu, qiymətləndiricinin qiymətləndirmə aparmasından əvvəl və sonra baş verənlərdir.




**Şəkil 3.1. Qiymətləndirmə həyat dövrəsindəki məqamlar**

- Hər şeyin rahat keçməsini təmin etmək üçün lazım olan hazırlıqlara baxılır və qiymətləndirmə prosesinin təmin edilməsi üçün tələb olunan yoxlamalar qiymətləndirmə prinsiplərini əks etdirir.

**TAPŞIRIQ 1**

- Bu tapşırıq iştirakçılara hazırda öz işlərində istifadə olunan qiymətləndirmə prosesi haqqında fikirləşmələri üçün hazırlanmışdır (Şəkil 3.2).

**TAPŞIRIQ 1**
**Hazırki yoxlamalar nələrdir?**

*Cüt şəklində və ya kiçik qruplarda işləmək.*

Qiymətləndirmənin düzgün aparılmasını təmin etmək üçün hansı işləri görürsünüz?

- Həqiqi qiymətləndirmə fəaliyyətindən əvvəl və sonra sizin və həmkarlarınızın həyata keçirdiyi işlərin siyahısını tərtib edin.
- Daha sonra bu siyahıya yenidən istinad etməlisiniz.

**Şəkil 3.2. Qiymətləndirmə prosesini əks etdirməyə dəstək**

- Bu tapşırıq inzibati proseslərə yönəlmişdir. Qiymətləndirmə vasitələrinin hazırlanması ilə əlaqəli olmadığımızı vurğulamalısınız. Yəqin ki, qiymətləndirmə hazırlanmış və təsdiq edilmiş şəkildə sizə təqdim edilir. Burada isə biz qiymətləndirmənin problemsiz keçməsini təmin etmək üçün nələrin lazım olması ilə maraqlanırıq.
- İştirakçılara bu modul vasitəsilə işlədikləri zaman siyahılarına müraciət etməli olduqlarını vurğulayın, buna görə də mümkün qədər ətraflı məlumat verin.
- Bu şəkildə modulun quruluşu təqdim edilmişdir. İştirakçılar sualların hər birinə növbə ilə baxacaqlar (Şəkil 3.3).

**Əsas suallar**

Qiymətləndirmə **prosesinin** əngəlsiz keçməsini təmin etmək üçün inzibati hazırlıqlar və yoxlamalar.

Prosesin əngəlsiz keçməsini təmin etmək üçün aşağıdakıları nəzərə almalıyıq:

- **HANSI** növ hazırlıq və yoxlamalar lazımdır?
- **NIYƏ** onlar vacibdir?
- **KIM** onların həyata keçirilməsini təmin edir?
- **NECƏ** onları təkmilləşdirmək olar?

**Şəkil 3.3. İnzibati hazırlıq və yoxlamalar**

➢ İki əsas şərtin nə demək olduğunu müəyyənləşdirmək vacibdir:

- **Hazırlıqlar** qiymətləndirmədən əvvəl ediləcək işlərin rahat şəkildə davam edəcəyinə əmin olmaq üçündür (Şəkil 3.4). Bu tələb olunan hazırlıqlar qaydalarda təsvir edilmişdir.
- Hazırlıqların yerində və təsirli olmasını təmin etmək üçün **yoxlamalar** aparılır. Yoxlamalar qiymətləndirmə prosesinin monitorinqi, qiymətləndirilməsinin və əgər baş verərsə, problemlərin aradan qaldırılmasının vacib hissəsidir.




**Şəkil 3.4. Tələb olunan hazırlıqlar**

➢ Vurğulanan dörd sahə hazırlıqların lazım olduğu əsas sahələrdir.

- **Namizədlər** qiymətləndirmə prosesindən nə gözləyəcəklərini və onlardan nə gözlədiklərini bilməlidirlər
- **İşçilər (məs.: idarəçilər və qiymətləndirmə komandaları) onlardan nələrin gözlənildiyini bilməlidir (bunun edildiyindən əmin olmaq üçün çeklər lazımdır)**
- **Yerlər və resurslar** tələblərə uyğun hazırlanmalıdır
- **Qiymətləndirmənin təhlükəsizliyi** vacibdir. Qiymətləndirmə etibarlı deyilsə, nəticələrə etibar ola bilməz.

➢ Şəkildə üç tənzimləmə səviyyəsi də vurğulanır:

- Milli tətbiq olunan tələbləri izah edən milli qaydalar.
- Yerli qaydalar (məs.: müəssisə və ya şöbə daxilində): Bu qaydalar yerli tənzimləmələrin yerli kontekstdə necə tətbiq olunduğunu təsvir edə bilər. Yerli vəziyyəti əks etdirən əlavə tələblər də daxil ola bilər. Lakin onların milli qaydalara zidd olmaması və ya namizədlərə əlavə yüklər qoymamaları vacibdir.
- **Kvalifikasiya üçün qiymətləndirmə standartı** kvalifikasiyanın necə

qiymətləndirildiyi barədə vacib məlumatları da əhatə edir. Buraya qiymətləndirmə üçün tələb olunan avadanlıq və ya resursların növü(ləri) daxil ola bilər. Buna görə qiymətləndirmə prosesi qiymətləndirmə standartının, milli və yerli qaydaların tələblərini əks etdirməlidir.

➢ İştirakçıların özlərinin həyata keçirdikləri qiymətləndirmə kontekstində tətbiq olunan qaydaları və tələbləri müəyyənləşdirməsi və anlaması vacibdir.

**QEYD:** iştirakçıların qiymətləndirmə kontekstinə uyğun ən müasir milli qaydaları əldə etmələrini təmin etməlisiniz.

➢ İdarəetmə proseslərinin qiymətləndirmənin keyfiyyətini təmin etməkdə və qiymətləndirmənin prinsiplərini əks etdirdiyinə əmin olmaqda mühüm rolu olduğunu unutmamaq vacibdir.

➢ Nəticələrin etibarlı və həqiqi olmasını təmin etmək üçün tələb olunan keyfiyyət təminatının bir hissəsini təqdim edirlər.

➢ Şəkil 3.5-də inzibati proses və prinsiplərin hər biri arasındakı əlaqə əks olunmuşdur.

**NİYƏ onlar vacibdir?**

Qiymətləndirmənin aşağıdakıları əks etdirməsini təmin etmək lazımdır:

**Qiymətləndirmənin 5 əsas prinsipi**

| | |
|---|---|
| Etibarlıl | Qiymətləndirmə düzgün nəticələrin verildiyini təmin etmək üçün təşkil edilmişdir |
| Həqiqi | Qiymətləndirmənin aparılmasında iştirak edən hər kəs öz rolunu tələblərə uyğun həyata keçirir |
| Şəffaf və ədalətli | Qiymətləndirmənin aparılmasında iştirak edən hər kəs öz rolunu tələblərə uyğun həyata keçirir<br>Qiymətləndirmə hər addımda ədaləti təmin etmək üçün təşkil edilir |
| Əlçatan | Şəxsi vəziyyətlərindən asılı olmayaraq bütün namizədlər qiymətləndirmə əldə edə və başa çatdıra bilərlər. |
| İdarə oluna bilən | Qiymətləndirmənin bütün aspektləri müəssisədə müvafiq şəkildə idarə olunur |

**Şəkil 3.5. İnzibati proses və prinsiplərin arasındakı əlaqə**

- Effektiv hazırlıq və yoxlamaların aparılmaması **qiymətləndirmənin nəticələrinin etibarlılığına təsir göstərə bilər** (Məsələn əgər qiymətləndirmə vasitəsinin etibarlı saxlanılması nəzərdə tutulsa, lakin namizədlər qiymətləndirmədən əvvəl istifadə edə bilsələr, bu imkanı olmayan digər şəxslərə qarşı haqsız üstünlük əldə edəcəklər.)
- Qiymətləndirməyə başlamazdan əvvəl qiymətləndiricilərin nə etməli olduqlarını anlamalarını təmin etmək çox vacibdir. Qiymətləndiricilər tələbləri və bir-birlərini ardıcıl qiymətləndirmirlərsə bu, **qiymətləndirmənin etibarlılığına** təsir edəcəkdir.
- Effektiv hazırlıq və yoxlamalar qiymətləndirmənin **şəffaf və ədalətli** olmasını təmin etmək üçün vacibdir. Namizədlər qiymətləndirmənin necə, nə vaxt və harada

aparılacağını və onlardan nə gözlənildiyini tam şəkildə bilməlidirlər və bütün qiymətləndirmələrin ədalətli aparılmasını təmin etmək üçün dəqiq hazırlıqların aparılması lazımdır.

- Kvalifikasiya üçün təhsil almış bütün namizədlər şəxsi vəziyyətlərindən asılı olmayaraq qiymətləndirmə apara bilməlidirlər. Qiymətləndirmənin namizədləri istisna etməməsini təmin etmək üçün hazırlıq işləri görülməlidir. Bu hazırlıqlara, xüsusi yardıma ehtiyacı olan namizədlər üçün yer ayrılması daxildir. Bu tənzimləmələr tətbiq oluna bilər
  - Resurslar (məsələn, görmə qüsuru olan namizədin böyük çapda verilən təlimatlara ehtiyacı ola bilər);
  - Məkan (məsələn, əlil arabasından istifadə edən namizəd yer səviyyəsindən yuxarı bir otağa daxil ola bilməz);
  - Vaxt və qiymətləndirmənin vaxtı.

  Müvafiq hazırlıqların olmaması, qiymətləndirmənin əlçatanlığına və ədalətinə təsir edəcəkdir.
- Bütün mənbələrin qiymətləndirmə üçün yerində olmasını təmin etmək üçün müvafiq planlaşdırma lazımdır. Məsələn, xüsusi avadanlıq və ya material əldə etmək üçün müəyyən vaxt tələb oluna bilər. Müvafiq planlaşdırma olmadan qiymətləndirmənin **idarə olunmasının** təsir altında olduğunu görə bilərsiniz.

### 3.3.2. Hazırlıq siyahısının hazırlanması

Bu bölmə iştirakçıları moduldakı bütün təlim nəticələrini qiymətləndirmə meyarlarını ünvanlamağa hazırlayır.

Bu hissədəki materiallar və tapşırıqlar iştirakçılara öz qiymətləndirmə kontekstlərində hazırlıq siyahıları yaratmağa (və ya mövcud siyahıları uyğunlaşdırmağa) kömək etmək üçün hazırlanmışdır. Bunlar qiymətləndirmənin inzibati prosesinin səmərəli həyata keçirildiyini necə təmin etdiklərini sübut etmək üçün istifadə edəcəkləri siyahılardır.

Bu bölmədə şəkil 3.4-də vurğulanan dörd fərqli sahəyə yönəlmiş 4 tapşırıq var:

- Namizədlər
- Heyət (idarəçilər və qiymətləndiricilər);
- Məkan və mənbələr;
- Qiymətləndirmənin təhlükəsizliyi.

Fərdi sahəyə diqqət ayırdıqdan sonra bu tapşırıqları bir-bir yerinə yetirmək istəyə bilərsiniz. Alternativ olaraq, qiymətləndirmə üçün lazım olan hazırlıqda iştirakçıların daha vahid görünmələri üçün tapşırıqları bir yerə qruplaşdıra bilərsiniz.

- Şəkildə namizədlərin nə gözlədiklərini və onlardan nəyin gözlənildiyini bilmələri üçün nəzərə alınması lazım olan bəzi məqamlar vurğulanır (Şəkil 3.6).

## Hazırlıq və yoxlamalar: Namizədlər

**Nəzərə alın:**

- Namizədlər üçün və onlar haqqında hansı məlumatlar lazımdır?

***Məsələn:***

- Bütün namizədlər tələblərə uyğun olaraq qiymətləndirmə üçün qeydə alınıbmı?
- Bütün namizədlər qiymətləndirmənin vaxtı, yeri, quruluşu və tələbləri barədə aydın və dəqiq məlumat almışlarmı?
- Xüsusi yardıma ehtiyacı olan namizədlər müəyyənləşdirilibmi? Hansı dəstəyə ehtiyac var və necə həyata keçirilir?

**Şəkil 3.6. Namizədlərin gözləntiləri**

➢ Lazım olan əsas proseslərə aşağıdakılar daxildir:

- Qiymətləndirmə aparacaq namizədlərin müəyyənləşdirilməsi və qeyd edilməsi yolu;
- Nə etməli olduqlarını bilmələri üçün bütün namizədlərə dəqiq və vaxtında brifinq;
- Xüsusi yardıma ehtiyacı olan namizədləri müəyyənləşdirmək və hansı xüsusi yardımın edilməsi barədə qərar vermək yolu.

**TAPŞIRIQ 2**

2, 3, 4 və 5 tapşırıqlar üçün proses eynidir. İştirakçıları tələb olunan hazırlıqların siyahısı və özlərinin həyata keçirdiyi qiymətləndirmə üçün yoxlama siyahısı (Şəkil 3.7).

## TAPŞIRIQ 2
## Hazırlıq və yoxlamalar: Namizədlər

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının namizədlərə aidiyyəti var?
2. Siyahınızı müvafiq milli, yerli və/ və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Namizədlərlə bağlı hər hansı bir hazırlıq və/ və ya yoxlamanı qaçırmısınız?
3. Namizədlə əlaqəli hər hazırlıq/ yoxlama üçün aşağıdakıları müəyyənləşdirin:
   - Bu hazırlığı / yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?
4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki slayddakı sualları nə dərəcədə ünvanlayır? Boşluqlar varmı?
5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

**Şəkil 3.7. Namizədlər üçün hazırlıqlar**

Namizədlər qiymətləndirmə kontekstində tətbiq olunan hər hansı qaydalara (müvafiq milli qaydalara), giriş əldə etməlidirlər.

Hər bir tapşırıq üçün iştirakçılar:

1. Tapşırıq 1-də etdikləri hazırlıq/ yoxlama siyahısına qayıdın və namizəd/ işçi heyəti/ yeri və resursları/ qiymətləndirmə təhlükəsizliyi ilə əlaqələndirin.
2. Onların siyahısını kvalifikasiyalarına görə müvafiq qaydalarla müqayisə edin. Bu mərhələ bütün müvafiq qaydaların tam şəkildə bilinmələrini təmin edir.
3. Özünüzün qiymətləndirmə kontekstinizə uyğun olaraq müəyyənləşdirin.
   a) Tapşırığın icrasına kim cavabdehdir;
   b) Tapşırıq nə vaxt yerinə yetirilməlidir.
   Bu məsələlər çox vacibdir, çünki inzibati prosesin necə keçdiyini, blokların və ya problemlərin (məsələn, məntiqi ardıcıllıqla olmayan tapşırığlar; ziddiyyətli prioritetlər) olub-olmadığını vurğulamağa kömək edəcəkdir.
4. Mövcud tələblərin şəkil 6-dakı suallara cavab verdiyini, və ya nə dərəcədə effektiv olduğunu və ən əsası boşluqların olub olmadığını müəyyənləşdirin.
5. Müəyyən etdikləri boşluqların kontekstlərində necə həll oluna biləcəyini müəyyənləşdirin.

4 və 5-ci addımlar iştirakçıları inzibati prosesin keyfiyyətini öz kontekstində yaxşılaşdırma yollarını təklif etməyə hazırlayır.

➢ Bu şəkil qiymətləndirmənin hazırlıq mərhələsində işləyən işçilərə aid edilir: yəni qiymətləndirmə hazırlıqlarında və qiymətləndirmənin aparılmasında iştirak edən bütün heyət (Şəkil 3.8). Buraya iştirak edən bütün qiymətləndiricilər, idarəçilər və menecerlər daxildir.

## Hazırlıq və yoxlamalar: Heyət

**Nəzərə alın:**

- Qiymətləndiricilər və idarəçilər hansı inzibati məlumatlara ehtiyac duyurlar?

***Məsələn:***

- Qiymətləndirmənin aparılmasında iştirak edən bütün heyətə onların rolu barədə tam məlumat verilibmi?
- Müvafiq qiymətləndirmənin aparılmasını təmin etmək üçün lazımi sayda heyət (lazım olduqda nəzarətçilər daxil olmaqla) varmı?
- Bütün qiymətləndiricilər qiymətləndirmənin aparılması, o cümlədən vaxtı, yeri, namizədlərin sayı və hər bir namizədin şəxsiyyətini yoxlama prosedurları barədə məlumat əldə etdilərmi?

**Şəkil 3.8. Heyətin qiymətləndirmə hazırlıqları**

- "Heyət" hazırlığı və yoxlamaların məqsədi aşağıdakılardan əmin olmaqdır:
  - Effektiv qiymətləndirmə-nin baş verməsi üçün tələb olunan müxtəlif rolları yerinə yetirmək üçün kifayət qədər insan var;
  - Hər kəs tam məlumatlandırılır və qiymətləndirmə üçün öz vəzifə və məsuliyyətlərini anlayır. Buraya qiymətləndiricilərin qiymətləndirmə aparmaq üçün tam hazır olmasını təmin etmək daxildir.
  - Hər kəs qiymətləndirmənin təhlükəsizliyini təmin etmək üçün praktik tələbləri anlayır (Şəkil 12-ə baxın).
- İştirakçılar hər məqamın niyə vacib olduğunu müzakirə etməyə həvəsləndirilməlidirlər (yəni hər birinin qiymətləndirilməməsi üçün hansı risklər var).

**TAPŞIRIQ 3**

- Tapşırıq 2 üçün təlimatlara baxın (Şəkil 3.9).

**TAPŞIRIQ 3**
**Hazırlıq və yoxlamalar: Heyət**

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının heyətə aidiyyəti var?
2. Siyahınızı müvafiq milli, yerli və/ və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Heyətlə bağlı hər hansı bir hazırlıq və/ və ya yoxlamanı qaçırmısınız?
3. Heyətlə əlaqəli hər hazırlıq/ yoxlama üçün aşağıdakıları müəyyənləşdirin:
   - Bu hazırlığı / yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?
4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki slayddakı sualları nə dərəcədə ünvanlayır? Boşluqlar varmı?
5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

**Şəkil 3.9. Tapşırıq 2, heyət üçün**

- Bu şəkil qiymətləndirməyə tələb olunan fiziki resurslar üçün hazırlanmışdır (Şəkil 3.10). Buraya qiymətləndirmənin aparılması üçün tələb olunan bütün aspektlər, məkan, avadanlıq və materiallar daxildir.

**Hazırlıq və yoxlamalar: Məkan və resurslar**

**Nəzərə alın:**

- Qiymətləndirmə məkanı müvafiq qaydada təşkil olunubmu?

***Məsələn:***

- Məkan dizayn və inkişaf mərhələlərində göstərilən tələblərə cavab verirmi? Buraya aşağıdakılar daxil ola bilər:
  - qiymətləndirmə sahəsinin ölçüsü və quruluşu
  - namizədlər üçün lazım olan avadanlıq və mənbələr
  - məkanın sağlamlıq imkanları məhdud namizədlər üçün əlçatanlığı
  - namizədlərin qiymətləndirmədən əvvəl gözləyə biləcəyi xüsusi bir sahə
  - inzibati tapşırıqları yerinə yetirmək üçün xüsusi, etibarlı bir sahə, yəni tələb olunan sənədlərin tamamlanması

**Şəkil 3.10. Fiziki resurslar**

- Resurslara olan tələblər adətən qiymətləndirmə strategiyasında və həmin kvalifikasiya üçün qiymətləndirmə vasitələrində göstərilmişdir. Lazımi resurslar barədə

məlumatların qiymətləndirmə təşkilatçılarına vaxtında, mənbələrin yerində yerləşdirilməsinə imkan verməsi vacibdir.

- Məkan üçün tələblər milli və ya yerli qaydalara da əlavə edilə bilər. Buraya qiymətləndirmə məkanının planı və ya namizədlərin həmin məkandan necə keçməsi ilə bağlı spesifikasiyalar daxil ola bilər (məsələn, qiymətləndirmə tapşırığını bitirmiş namizədləri bitirməyənlərdən ayrı tutmağınız; aldatma potensialını minimuma endirmək üçün məkanı necə qurmağınız)
- İştirakçılar hər bir məqamın niyə vacib olduğunu müzakirə etməyə həvəsləndirilməlidirlər (yəni hazırlıqların qiymətləndirilməməsi üçün hansı risklər var).

**TAPŞIRIQ 4**

- Tapşırıq 2 üçün təlimatlara baxın (Şəkil 3.11).
- Bu şəkildə qiymətləndirmənin təhlükəsizliyinə dair məlumatlar öz əksini tapmışdır (Şəkil 3.12). Bura qanunsuzluqların (yəni aldatma) potensialının minimuma endirilməsini və aşkar edildiyi təqdirdə qanunsuzluqlarla mübarizə prosedurlarının olmasını təmin etmək üçün lazım olan hazırlıqlar daxildir.
- Təhlükəsizlik ilk növbədə iki aspektə aiddir: qiymətləndirmə materialları və əlaqəli insanlar.

**TAPŞIRIQ 4**

**Hazırlıq və yoxlamalar: Məkan və resurslar**

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının məkan və resurslara aidiyyəti var?
2. Siyahınızı müvafiq milli, yerli və/ və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Məkan və resurslarla bağlı hər hansı bir hazırlıq və/ və ya yoxlamanı qaçırmısınız?
3. Məkan və resurslarla əlaqəli hər hazırlıq/ yoxlama üçün aşağıdakıları müəyyənləşdirin:
   - Bu hazırlığı/ yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?
4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki slayddakı sualları nə dərəcədə ünvanlayır? Boşluqlar varmı?
5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

**Şəkil 3.11. Məkan və resurslar**

**Hazırlıq və yoxlamalar: Təhlükəsizlik**

**Nəzərə alın:**

- Qiymətləndirmənin təhlükəsizliyi təmin edilirmi?

***Məsələn:***

- Qiymətləndirmənin aparılmasında iştirak edən bütün işçilərə qiymətləndirmənin təhlükəsizliyini təmin etmədəki rolları barədə tam məlumat verilibmi?
- Mümkün saxtakarlıqdan qorunmaq üçün ehtiyat tədbirləri varmı?
- Qiymətləndirmə zamanı şübhəli saxtakarlıq və ya qanun pozuntuları ilə məşğul olmaq üçün bir proses varmı (namizədlər, və ya qiymətləndiricilər tərəfindən)?
- Bütün qiymətləndirmə materialları qiymətləndirmədən əvvəl, müddətində və sonra tələblərə uyğun olaraq saxlanılırmı?

**Şəkil 3.12. Qiymətləndirmə təhlükəsizliyi**

- Materialların təhlükəsizliyi üçün hazırlıqlar aşağıdakılar üçün potensialın olmamasını təmin etməlidir:
  - Rəsmi olaraq buraxılmazdan əvvəl insanların qiymətləndirmə tapşırıqlarına giriş imkanı yoxdur;
  - Materialların namizədlərdən və qiymətləndiricilərdən başqa insanlarla uyğun olmayan şəkildə bölüşülməsi üçün potensial yoxdur;
  - Qiymətləndiricilərin qeydləri tamamlandıqdan sonra dəyişdirmək üçün potensial yoxdur.
- Qanunsuzluqlardan qorunmaq üçün hazırlıqlar, bunun üçün potensialın olmamasını təmin etməlidirlər:
  - Qiymətləndirmədən əvvəl və ya zamanını başqalarından kömək və ya üstünlük əldə edən namizədlər. Bu yardım növünə bu misallar daxil ola bilər:
    - Qiymətləndirmə yerindən kənarda insanlarla ünsiyyət qurmaq üçün telefonlara və ya digər elektron cihazlara giriş imkanı;
    - Qiymətləndirmə tapşırığı zamanı qiymətləndirici və ya digər işçilər tərəfindən yardım almaq;
  - Qiymətləndiricilər və ya digər heyət üzvləri ədalətsiz və ya yersiz nəticə vermək üçün qiymətləndirmə qeydlərində düzəlişlər edirlər.
- İştirakçılar hər məqamın niyə vacib olduğunu müzakirə etməyə həvəsləndirilməlidirlər (yəni hazırlıqların yerinə yetirilməməsini qiymətləndirmək üçün hansı risklər var).

**TAPŞIRIQ 5**

- Tapşırıq 2 üçün təlimatlara baxın (Şəkil 3.13).

**TAPŞIRIQ 5**

**Hazırlıq və yoxlamalar: Təhlükəsizlik**

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının təhlükəsizliyə aidiyyəti var?
2. Siyahınızı müvafiq milli, yerli və/ və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Təhlükəsizliklə bağlı hər hansı bir hazırlıq və/ və ya yoxlamanı qaçırmısınız?
3. Təhlükəsizliklə əlaqəli hər hazırlıq/ yoxlama üçün aşağıdakıları müəyyənləşdirin:
   - Bu hazırlığı/ yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?
4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki slayddakı sualları nə dərəcədə ünvanlayır? Boşluqlar varmı?
5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

**Şəkil 3.13. Təhlükəsizlik**

## TAPŞIRIQ 6

➢ Modul 3 qiymətləndirməsi namizədlərdən apardıqları qiymətləndirmə üçün bütün hazırlıqların olmasını təmin etməkdə yoxlamalar aparmağı tələb edir (Modul 4 baxın) (Şəkil 3.14). Əhəmiyyətli olan, onlar hazırlıqların aparılması üçün məsuliyyət daşımır, lakin hazırlıqların yerində olub-olmadığını yoxlayırlar.

**TAPŞIRIQ 6**

**Hazırlıqların və yoxlamaların yerində olmasının təmin olunması**

Modul 3 qiymətləndirməsi, apardığınız qiymətləndirməni dəstəkləmək üçün bütün tələb olunan inzibati hazırlıqların və yoxlamaların edildiyini təmin etməyinizi tələb edir.

- Tamamlanmış yoxlama siyahısını təqdim etməlisiniz:
  - edilən hazırlıqlar/ yoxlamalar
  - hər hazırlıq/ yoxlama üçün kim məsuliyyət daşıyırdı
  - hər hazırlıq / yoxlama nə vaxt aparıldı
  - hazırlıq / yoxlama aparıldığının təsdiqlənməsi
- Bu tapşırıq üçün tapşırıq şablonundan istifadə edərək yeni bir siyahı yarada və ya mövcud şablonu uyğunlaşdıra bilərsiniz.
- Yoxlama siyahısınızın tələb olunan bütün məlumatları əhatə etdiyini təmin etməlisiniz.

**Şəkil 3.14. Bütün hazırlıqların olmasının təmin edilməsi**

➢ Bu son tapşırıq iştirakçıların modul 3 qiymətləndirməsinə hazırlaşmalarına kömək etmək üçün hazırlanmışdır. İştirakçılardan 2,3, 4 və 5-ci tapşırıqlarda təyin etdikləri bütün hazırlıqları yoxladıqlarını yoxlamaq üçün bir siyahı hazırlamaları tələb olunur.

➢ İştirakçılar:

- İştirakçılar öz müəssisələrində artıq mövcud olan bir yoxlama siyahısını uyğunlaşdıra bilərlər. Bu, iştirakçıların onsuz da mövcud olan proseslərdən istifadə etmələri və qurulması üçün təşviq olunur;
- Tapşırıq iş vərəqinə daxil edilmiş şablon əsasında yeni bir yoxlama siyahısı yaradın.

➢ Seçimlərdən birini seçmələrindən asılı olmayaraq iştirakçılar yoxlama siyahısının onları müəyyənləşdirməyə imkan verdiyinə əmin olmalıdırlar:

- Hazırlıq tapşırıqlarının tam diapazonu;
- Həmin tapşırığa cavabdeh şəxs;
- Tapşırığın vaxtı;
- Hazırlıqdan irəli gələn hər hansı bir problem (məsələn, hazırlıq zamanı hər hansı bir problem aşkarlanarsa).

- Modulun qiymətləndirmə meyarlarını şəkil 3.15-də öz əksini tapmışdır.
- İştirakçılar hər meyara münasibətdə inam səviyyələrini əks etdirməlidirlər. Etibarlı olmayan sahələr üçün inamlarını artırmaqda nə lazım olduğunu müəyyənləşdirməlidirlər.

**Nə qədər hazırsınız?**

Bu modulun qiymətləndirmə meyarlarına baxın. Siz bacarmalısınız:

a) Qiymətləndirmədən əvvəl, ərzində və sonra qiymətləndirmənin təhlükəsizliyini təmin etmək üçün tədbirlərin olmasını təmin etmək;
b) Resurs və məkan tənzimləmələrinin aparılmış qiymətləndirmə tələblərinə cavab verməsini təmin etmək (praktik və nəzəri fəaliyyət üçün resurslar, səs-küy, oturma yerləri, mütəxəssis qiymətləndiricilər).

a) Bütün praktik tənzimləmələr də daxil olmaqla bütün namizədlərin qiymətləndirmə tələblərindən xəbərdar olmasını təmin etmək
b) Xüsusi yardıma ehtiyacı olan namizədləri və lazım olan yardım növlərini müəyyənləşdirmək
c) Tələb olunan hər hansı bir xüsusi yardım üçün tədbirlərin görülməsini təmin etmək

1. Hər bir meyara cavab verə biləcəyinizə nə qədər əminsiniz?
(3 = Çox əminəm/ 2 = Əminəm/ 1 = Əmin deyiləm
2. 1 və ya 2 bal topladığınız hər hansı bir meyar üçün:
Əminlik səviyyənizi artırmaq üçün nə edə bilərsiniz?

**Şəkil 3.15. Qiymətləndirmə meyarlarının vurğulanması**

- Bu modul üçün qiymətləndirmə tapşırığı üçün şəkil 3.16-ya baxır. Bu modul, modul 4 ilə birlikdə qiymətləndirilə bilər.
- İştirakçıların yalnız yoxlama siyahılarını doldurmaları yox, bunu necə etdikləri barədə izahat vermələrinin lazım olduğu vurğulanmalıdır: bu, digər işçilərlə görüş, fiziki yoxlama və ya hazırlıq tapşırıqlarını özləri yerinə yetirməklə ola bilər.

**Qiymətləndirmə üçün hazırlıq**

**Modul 3: Təqdim etməlisiniz....**

- Kontekstinizdə praktik qiymətləndirmə üçün inzibati tələbləri yoxladığınızı göstərən qeydlərin surətləri;
- Nümunə şablon verilmişdir. Bunu istifadə edə bilərsiniz – və ya öz qeydlərinizi hazırlaya bilərsiniz;
- İnzibati tələbləri yoxlamaq üçün izlədiyiniz prosesin qısa (maksimum 500 söz) təsviri.

**Şəkil 3.16. Qiymətləndirmə tapşırığının təyin edilməsi**

## 3.4. Modul 3: Təhsilalanın fəaliyyətləri

***TAPŞIRIQ 1: Hazırki yoxlamalar nələrdir?***

Kiçik qruplar/cütlər şəklində işləməklə

Qiymətləndirmənin düzgün aparılmasını təmin etmək üçün hansı işləri görürsünüz?

- Həqiqi qiymətləndirmə fəaliyyətindən əvvəl və sonra həyata keçirdiyiniz fəaliyyətlərin siyahısını tərtib edin.
- Daha sonra bu siyahıya yenidən müraciət etməlisiniz.

## *TAPŞIRIQ 2: Hazırlıq və yoxlamalar: Namizədlər*

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının namizədlərlə əlaqəsi var?

2. Siyahınızı müvafiq milli, yerli və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Namizədlərlə bağlı hər hansı bir hazırlığı və ya yoxlamanı qaçırmısınız?

3. Namizədlə bağlı hər şeyi hazırlıq və yoxlama üçün aşağıdakıları müəyyənləşdirin:
   - Bu hazırlığı və yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?

4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki şəkildəki sualları nə dərəcədə həll edir? Boşluqlar varmı?

5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

### *TAPŞIRIQ 3: Hazırlıq və yoxlamalar: Heyət*

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının heyətə aidiyyəti var?

2. Siyahınızı müvafiq milli, yerli və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Heyətlə bağlı hər hansı bir hazırlıq və yoxlamaları qaçırmısınız?

3. Heyətlə əlaqəli hər şeyi hazırlıq və yoxlama üçün müəyyənləşdirin:
   - Bu hazırlıq və yoxlama üçün kim məsuliyyət daşıyır?
   - Bu nə vaxt baş verir?

4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki şəkildəki sualları nə dərəcədə həll edir? Boşluqlar varmı?

5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

***TAPŞIRIQ 4: Hazırlıq və yoxlamalar: Məkan və resurslar***

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının məkan və resurslara aidiyyəti var?

2. Siyahınızı müvafiq milli, yerli və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Məkan və resurslarla bağlı hər hansı bir hazırlıq və ya yoxlamaları qaçırmısınız?

3. Məkan və resurslarla əlaqəli hər şeyi hazırlıq və yoxlama üçün müəyyənləşdirin:
    - Bu hazırlığı və yoxlanışı kim həyata keçirir?
    - Bu nə vaxt baş verir?

4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki şəkildəki sualları nə dərəcədə həll edir? Boşluqlar varmı?

5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

### *TAPŞIRIQ 5: Hazırlıq və yoxlamalar: Təhlükəsizlik*

1. Tapşırıq 1-də etdiyiniz yoxlamaların siyahısına yenidən baxın. Mövcud hazırlıq və yoxlamalardan hansının təhlükəsizliyə aidiyyəti var?

2. Siyahınızı müvafiq milli, yerli və ya kvalifikasiya qaydaları ilə müqayisə edin. Təhlükəsizliklə bağlı hər hansı hazırlıq və yoxlamaları qaçırmısınız?

3. Təhlükəsizliklə əlaqəli hər şeyi hazırlıq və yoxlama üçün müəyyənləşdirin:
   - Bu hazırlığı və yoxlanışı kim həyata keçirir?
   - Bu nə vaxt baş verir?

4. Mövcud hazırlıq və yoxlamalar əvvəlki şəkildəki sualları nə dərəcədə həll edir? Boşluqlar varmı?

5. Müəyyən etdiyiniz boşluqları aradan qaldırmaq üçün nə edə bilərsiniz?

### *TAPŞIRIQ 6: Hazırlıqların və yoxlamaların yerində olmasını təmin etmək*

Modul 3 qiymətləndirməsi, apardığınız qiymətləndirməni dəstəkləmək üçün bütün tələb olunan inzibati hazırlıqların və yoxlamaların edildiyini təmin etməyinizi tələb edir.

- Tamamlanmış yoxlama siyahısını təqdim etməlisiniz:
  - Hazırlanan hazırlıq və yoxlamaları;
  - Hər hazırlıq yoxlama üçün kim məsuliyyət daşıyırdı;
  - Hazırlıq və yoxlama nə vaxt aparıldı;
  - Hazırlıq və yoxlama aparıldığının təsdiqlənməsi;
  - Nəzərə alınması lazım olan hər hansı bir məsələni (məsələn, əlavə yoxlamalar lazımdırsa).
- Bu tapşırıq üçün *həmçinin* edə bilərsiniz:
  - Aşağıdakı nümunə tapşırıq şablonundan istifadə edərək yeni bir siyahı yaratmaq *və ya;*
  - Mövcud şablonu uyğunlaşdırmaq *və ya;*
  - Yeni bir şablonu yaratmaq.
- Yoxlama siyahınızda tələb olunan bütün məlumatları əhatə etdiyini təmin etməlisiniz.

### TAPŞIRIQ ŞABLONUNUN NÜMUNƏLƏRİ

| HAZIRLAMA/YOXLAMA TAPŞIRIĞI | Nə vaxt? | Kim? | Yoxlanıldı? | Məsələlər |
|---|---|---|---|---|
| **Namizədlər** | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| **Heyət** | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| **Resurslar/məkan** | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| **Təhlükəsizlik** | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

### 3.5. Modul 3: Qiymətləndirmə

### 3.5.1. Qiymətləndirmənin dəqiqləşdirilməsi

| Modulun adı | Modul 3: Qiymətləndirmə prosesinin planlaşdırılması |
|---|---|
| **Modulun məzmunu**<br>*Bu modulun təlim nəticələri nələrdir?* | |
| Bu modul 2 təlim nəticəsini özündə cəmləşdirir. Namizəd:<br>1. Qiymətləndirmə prosesini təşkil etməlidir;<br>2. Qiymətləndirmənin bütün namizədlər üçün əlçatan olmasını təmin etməlidir. | |
| **Qiymətləndirməyə yanaşma**<br>*Təlim nəticələri necə qiymətləndiriləcək?*<br>*Qiymətləndirmə vasitəsi və ya vasitələrinin hansı növü istifadə ediləcək?* | |
| Bu modul və 4-cü modulun qiymətləndirməsi eyni vaxtda aparılır. Təcrübəçi qiymətləndiricinin 4-cü modulda aparacağı qiymətləndirmələrin effektiv idarə olunmasını təmin etmək üçün tələb olunan yoxlamaların aparılacağı gözlənilir.<br>Təcrübəçi qiymətləndiricisindən təqib etdiyi qiymətləndirmə prosesini öz kontekstində qeyd etməsi tələb olunur. Qeydlər canlı qiymətləndirmə prosesində olmalıdır. Bu modulda təlim nəticələrinin qiymətləndirilməsi, ilk növbədə, namizəd tərəfindən təqdim edilmiş və səlahiyyətli şəxs tərəfindən təsdiqlənmiş qeydlərə əsaslanacaqdır. | |
| **Qiymətləndirmə vasitələri**<br>*Hər qiymətləndirmə vasitəsindən istifadə ediləcək:*<br>• *Alət özündə hansı növ tapşırıq və ya tapşırıqları ehtiva edir?*<br>• *Hansı qiymətləndirmə meyarlarına tətbiq edilir?*<br>• *Tapşırığı başa çatdırmaq üçün namizəd nə etməlidir?* | |
| Namizədlərdən aşağıda verilənlərin daxil olduğu qiymətləndirmənin dəstəklənməsi üçün lazım olan idarəetmə blanklarının tamamlanmış qeydlərini təqdim etmələri tələb olunur:<br>• Qiymətləndirmə administrasiyasının kontekstində qeydini dəstəkləmək üçün müvafiq qeyd formaları. Formalar 4-cü modul qiymətləndirməsi kimi aparacaqları iki qiymətləndirmə üçün namizəd tərəfindən doldurulmalı və səlahiyyətli şəxs tərəfindən əsl qeydlər kimi təsdiqlənməlidir;<br>• Qiymətləndirmədən əvvəl qiymətləndirici namizədlərə verilən hər hansı bir məlumatın surəti;<br>• Namizədin yoxlama prosesinin necə keçirdiyinə dair qısa təsvir. **Bu təsvir 500 sözdən çox olmamalıdır.**<br>Namizədin verdiyi məlumatlar bu modulda təlim nəticələrinə daxil olan bütün qiymətləndirmə meyarlarına cavab verməlidir: | |

**TN 1: Qiymətləndirmə prosesini təşkil etmək**

*Uğurlu namizəd:*

a) Qiymətləndirmədən əvvəl, qiymətləndirmə zamanı və sonrakı fəaliyyətlərin təhlükəsizliyini təmin edən hazırlıqların aparılmasını təmin edir;

b) Qiymətləndirmədə tələblərə cavab verən uyğun mənbələrin və məkanın (məs, praktiki və nəzəri fəaliyyətlər üçün resurslar, kənar səslər, əyləşdirmə üsulu, mütəxəssis qiymətləndiricilər) seçilməsini təmin edir.

**TN 2: Qiymətləndirmənin bütün namizədlər üçün əlçatanlığını təmin etmək**

*Uğurlu namizəd:*

a) Praktiki hazırlıqlar daxil olmaqla qiymətləndirmənin tələbləri barədə bütün namizədlərin xəbərdar olmasını təmin edir;

b) Xüsusi dəstəyə ehtiyacı olan namizədləri və dəstəyin növünü müəyyən edir;

c) Tələb olunan hər hansı xüsusi dəstək üçün hazırlıqların aparılmasını təmin edir.

**Keçid dərəcəsinə nail olmaq üçün minimum tələblər**

Aşağıdakı cədvəldə bu qiymətləndirmə üçün məzmun tələbləri və bu qiymətləndirməni keçmək üçün minimum tələblər təsvir edilmişdir.

| Məzmun tələbləri | Keçid dərəcəsinə cavab vermək üçün minimum tələblər |
|---|---|
| Namizəd hazırlamalıdır? seçməlidir:<br>1. TN1-də sadalanan qiymətləndirmənin bütün tələblərini yoxlamaq üçün müvafiq qeyd formaları (1a və b)<br>Namizəd:<br>2. 4-cü modulda müşahidə ediləcək qiymətləndirmə üçün hazırlanmış, seçilmiş, müvafiq səlahiyyətli şəxs tərəfindən dəqiq sayılmış sənədləri təqdim etməlidir (1a və b)<br>3. Namizədlərə qiymətləndirmə tələbləri barədə verilən məlumatların surətlərini təqdim etməlidir (2a)<br>4. İzlənilən proseslərin qısa təsvirini verməlidir:<br>• Namizədlərə məlumat vermək üçün (2a) | Keçid dərəcəsində, tapşırığa ən azı aşağıdakılar daxil olmalıdır:<br>➢ Namizədin yoxladığını göstərən qeydlər:<br>• Qiymətləndirmədən əvvəl, qiymətləndirmə vaxtı və sonra qiymətləndirmə materiallarının təhlükəsizliyini təmin etmək üçün tədbirlər;<br>• Qiymətləndirmə üçün lazım olan hər hansı bir mənbənin (material və avadanlıq daxil olmaqla) mövcudluğu;<br>• Qiymətləndirmə yeri üçün hər hansı bir xüsusi tələbin təşkili;<br>• Hər hansı bir namizədin xüsusiköməyə ehtiyacı olduqda. |

| | |
|---|---|
| • Xüsusi yardıma ehtiyacı olan hər hansı bir namizədin müəyyən edilməsi və bu cür namizədlərin müəyyənləşdirildiyi təqdirdə (2b)<br>• Ehtiyacı olan hər hansı bir namizədə (tələb olunarsa) xüsusi yardım üçün tədbirlər görməlidir (2b) | ➢ Namizədin namizədlərinin bildiklərini təmin etdiyini nümayiş etdirən dəlil:<br>• Qiymətləndirmənin necə aparılacağını;<br>• Qiymətləndirmənin harada və nə vaxt baş tutacağı;<br>• Qiymətləndirmədə nə etməli və ya etməməlidir;<br>• Xüsusi yardımı necə tələb etmək. |

### 3.5.2. Qiymətləndirmə tapşırığı

**Modul 3: Qiymətləndirmə prosesinin planlaşdırılması**

Keçirdiyiniz qiymətləndirməni dəstəkləmək üçün bütün lazımi inzibati hazırlıq və yoxlamaların edildiyini təmin etdiyinizi nümayiş etdirin.

**Təqdim etməlisiniz:**

1. Tamamlanmış yoxlama siyahı:
   a) Hazırlıqlar/ edilən yoxlamalar;
   b) Hər bir hazırlıq/ yoxlamalar üçün kim məsuliyyət daşıyırdı?
   c) Hazırlıq/ yoxlama nə vaxt aparıldı?
   d) Hazırlıq / yoxlama aparıldığının təsdiqlənməsi;
   e) Nəzərə alınması lazım olan hər hansı bir məsələni (məsələn, əlavə yoxlamalar lazımdırsa).

   ➢ Bu tapşırıq üçün *həmçinin* edə bilərsiniz:
     - Aşağıdakı nümunə tapşırıq şablonundan istifadə edərək yeni bir siyahı yaratmaq;
     - Mövcud şablonu uyğunlaşdırmaq;
     - Yeni bir şablonu yaratmaq.

   ➢ Yoxlama siyahısınızın tələb olunan bütün məlumatları əhatə etdiyini təmin etməlisiniz.

2. Qiymətləndirmədən əvvəl namizədlərə və işçilərə verilən hər hansı bir yazılı məlumatın surətləri.

**3.** Namizədin yoxlama prosesini necə keçirdiyinə dair qısa təsvir. **Bu təsvir 500 sözdən çox olmamalıdır.**

Verdiyiniz məlumatlar bu moduldakı təlim nəticələrinə daxil olan bütün qiymətləndirmə meyarlarına müraciət etməlidir:

# 4. Modul 4: Qiymətləndirmənin aparılması və qiymətləndirmə qərarlarının verilməsi

## 4.1. İcmal

Modul 4 proqramın son moduludur. Qiymətləndirmənin aparılmasına yönəldilir: qiymətləndiricinin qiymətləndirməni necə aparması və qiymətləndirmə qərarına necə gəlməsi.

Modulun diqqəti iştirakçıların öz qiymətləndirmə təcrübəsinə çox yönəlmişdir. Nəticədə, bu modulda modul 1 və 2 ilə müqayisədə daha az tədris materialı var və iştirakçılara öyrəndiklərini tətbiq etmək üçün dəstək olmağa daha çox diqqət yetirilir.

Bu bölmədə modul 4-ün çatdırılmasını dəstəkləyən materiallar, fəaliyyətlər və qiymətləndirmə təlimatı mövcuddur. Bu moduldakı bütün təlim nəticələri və qiymətləndirmə meyarlarına toxunulur. Bunlara daxildir:

- İstifadə qaydaları ilə birlikdə təlimçinin istifadəsi üçün şəkillər;
- Təhsilalanlar üçün 6 fəaliyyət;
- Bu modulun qiymətləndirilməsi üçün tələb olunan qiymətləndirmə vasitəsi və qiymətləndirmə təlimatı.

**Qeyd:**
AzMKÇ kvalifikasiyalarında qiymətləndirmənin keyfiyyət təminatı ilə bağlı milli qaydalar dəyişə bilər. Bu modulu təqdim etməzdən əvvəl təlimçilər milli qaydaların mövcudluğunu və statusunu yoxlamalıdırlar.

## 4.2. Təlim nəticələri və qiymətləndirmə meyarları

| | |
|---|---|
| **Modulun adı:** | Qiymətləndirmənin aparılması və qiymətləndirmə qərarlarının verilməsi |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra qiymətləndirmə mütəxəssisinin rol və öhdəliklərini biləcək, həmin prosesin tələblərə uyğun həyata keçirməyi və qiymətləndirmə mühakimələrinin təsdiqlənməsini bacaracaq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Qiymətləndirmə mütəxəssisinin rol və öhdəliklərini anladığını nümayiş etdirmək | a) Qiymətləndirmə mütəxəssisinin həqiqi və etibarlı qiymətləndirməni necə dəstəklədiyini izah edir;<br>b) Mütəxəssisin qiymətləndirmə qərarlarının təsdiqlənməsi üçün tələb olunan proseslərin aydın anladığını nümayiş etdirir;<br>c) Qiymətləndirmənin həqiqiliyi, etibarlılığı və təhlükəsizliyini təmin etməklə fəaliyyətini peşəkar şəkildə icra edir;<br>d) Qiymətləndirmə prosesini qanunvericiliyə uyğun həyata keçirir;<br>e) Tələblərə uyğun olaraq qiymətləndirmə standartlaşdırmasını başa çatdıra bilir. |
| 2. Qiymətləndirməni tələblərə uyğun olaraq aparmaq | a) Qiymətləndirmənin tələblərini tam anladığını (istifadə olunacaq vasitə və qiymətləndirmə meyarları daxil olmaqla) nümayiş etdirir;<br>b) Qiymətləndirməni təsdiq olunmuş qiymətləndirmə vasitələrinə daxil edilən təlimata müvafiq aparır;<br>c) Qiymətləndirmə vasitələrində təsvir olunan təlim nəticələri və qiymətləndirmə meyarlarına uyğun təhsilalanları müvafiq qiymətləndirir;<br>d) Qiymətləndirmə mühakimələrinin/təhlillərinin əsas prinsiplərə uyğun aparılmasını təmin edir (etibarlı, uyğun, ədalətli);<br>e) Qiymətləndirmə mühakimələrinin/təhlillərinin qiymətləndirmə tələblərinə müvafiq şəkildə qeydiyyatını aparır;<br>f) Qiymətləndirmə mühakimələrinin/təhlillərinin, qiymətləndirmə qeydlərinin və namizədlərin materiallarının/dəlillərinin təhlükəsizliyini təmin edir. |

| | |
|---|---|
| 3. Qiymətləndirmə mühakimələrinin/təhlillərinin təsdiqlənməsinə töfhə vermək | a) Qiymətləndirmə mühakimələrinin/təhlillərinin verilən bir kontekstdə təsdiqlənməsi prosesini təsvir edir;<br>b) Qiymələndirmə mütəxəssisinin təsdiqlənmə prosesini necə effektiv və səmərəli dəstəkləyəcəyini ayırd edir. |

## 4.3. Modul 4: Tədris materialları

### 4.3.1. Giriş

Bu bölmə qiymətləndiricinin rolu və vəzifələri haqqında məlumatları gücləndirir.
İştirakçılara aşağıdakı qiymətləndirmə meyarlarının tələblərini qarşılamağa kömək etmək üçün hazırlanmışdır: 1a

➢ Modulun mövzusu "Qiymətləndirmənin aparılması və qiymətləndirmə qərarlarının verilməsi"dir.
